www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 avqust 2014-cü il Cümə axşamı № 203 (5912) Qiyməti 40 qəpik

**Xəbər**

## Ebola virusu Azərbaycanın bir addımlığında

yazısı səh.15-də

**Gündəm**

### Qarabağı 10 milyarda alaqmı?




Bu, savaş riskini sıfırlamağın ən optimal yoludur; dağıdıcı müharibədənsə, konfliktin maliyyə resursları hesabına həlli bütün tərəfləri qane edərdi, əgər Rusiya və Ermənistan rəhbərlikləri nəhayət, rasional düşüncəyə köklənsəydi...

yazısı səh.7-də

### Ermənilərin ölüm siyahısındakı azərbaycanlılar...

yazısı səh.6-da

### İntiqam Əliyevin apelyasiya şikayəti təmin edilmədi

"Qırmızı Xaç"ın nümayəndələri ona və Leyla Yunusa baş çəkdilər

yazısı səh.3-də

### Həmsədrlər regiona gəlmək istəyir; QAT isə onları ölkəyə buraxmamağa çağırır

yazısı səh.11-də

*Hüseyn Məlik:*

### "Müsavatdan istefa verirəm... Amma səbəbini demirəm"

yazısı səh.4-də

### Azərbaycanlı aparıcıya 3 illik həbs verildi

yazısı səh.2-də

### Amerikada qaldırılan ağ bayrağın sirri açıldı

yazısı səh.13-də

### Öz həyatına qıyan məşhurların siyahısında filosof da var, yazıçı da, aktyor da

yazısı səh.15-də

### Maştağadakı yol qəzasında dörd nəfər öldü

yazısı səh.2-də

### Bakıda ailələr tikinti şirkətinə qarşı üsyan edir

Daha bir söküntü və daha bir narazılıq, etiraz...

yazısı səh.14-də

## Əli Həsənov Soçi görüşünün şok detallarını açıqladı

# ƏLİYEV SƏRKİSYANIN ÜZÜNƏ "FAŞİST" DEYİB

Ermənilərin prezidentinin Soçidəki görüşə dair açıqlamalar verməsi Azərbaycan iqtidarını hərəkətə keçirdi; "Sərkisyan saxtakarlıq edir"; Prezidentlərin görüşündə skandal və söz dueli yaşanıbmış




yazısı səh.6-da

## Ər-arvad özünü Prezident Administrasiyası qarşısında yandırdı

Ailənin "odlu etirazı"na məhkəmə qərarı ilə yaşadıqları evdən çıxarılmaları səbəb olub; PA-nın nümayəndəsi xəstəxanada etirazçılarla görüşərək işi nəzarətə götürdü

yazısı səh.10-da



*Ömər Faruk Loğoğlu:*

### "Ərdoğanın Türkiyəsi fəlakət olacaq"

yazısı səh.5-də



*Vəfa Quluzadə:*

### "3-cü Dünya müharibəsi çağırışları Putinin Qərbi şantaj cəhdidir"

yazısı səh.7-də



*İqbal Ağazadə:*

### "Rusiya konflikti həll edən tərəf deyil"

yazısı səh. 8 və 9-da

## NEKROLOQ



Azərbaycan xalqı böyük itkiyə məruz qalıb. Məşhur kardioloq, böyük ictimai-siyasi xadim, Güney Azərbaycan milli hərəkatının görkəmli siması Cavad Heyət vəfat edib.

1925-ci il mayın 24-də Təbriz şəhərində anadan olan Cavad Heyət orta təhsilini İranda alıb. 1946-cı ildə Türkiyədə İstanbul Universitetinin tibb fakültəsini bitirib. Daha sonra tibbi təhsilini Fransa paytaxtı Parisdə davam etdirən Cavad Heyət, yüksək dərəcəli cərrah ixtisasına yiyələnib, 1952-ci ildə Tehrana qayıdaraq öz klinikasını açıb.

Cavad Heyət Tehran Azad İslam Universitetinin cərrahiyə üzrə professoru, 1983-cü ildən Paris Beynəlxalq Cərrahlıq Akademiyasının üzvü olub.

Cavad Heyət həmçinin "Varlıq" dərgisinin təsisçisidir. O, 36 ildən artıqdır ki, türk və fars dillərində yayılan bu ədəbi-mədəni dərgini nəşr etdirib.

Cavad Heyət tibb və türkologiya sahəsində bir sıra kitabların, o cümlədən cərrahlıqla bağlı 3 cildlik dərsliyin, "Azərbaycan ədəbiyyat tarixinə bir baxış", "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Türk dili və ləhcələrinin tarixi", "İki dilin müqayisəsi" və digər əsərlərin müəllifidir.

O, Bakı Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, Xəzər Universitetinin fəxri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının, N.Tusi adına Azərbaycan Pedaqoji Universitetinin fəxri professoru, Azərbaycan Cərrahları Elmi Cəmiyyətinin fəxri üzvü, Türk Dil Qurumunun fəxri sədri, eləcə də İstanbul Universitetinin fəxri doktoru idi

Cavad Heyət Azərbaycan Yazıçılar Birliyinin M.F.Axundov adına mükafatına və "Dədə Qorqud" Assosiasiyasının təsis etdiyi "Məmməd Araz" mükafatına layiq görülüb.

Allah rəhmət eləsin!

## NEKROLOQ

Müsavat Partiyasına ağır itki üz verib. Partiyanın Şəki rayon təşkilatının üzvü Hüseynağa Məhərrəm oğlu Əsgərzadə vəfat edib. Hüseynağa Məhərrəm oğlu Əsgərzadə 1947-ci il sentyabr ayının 27-də Şəki şəhərində anadan olmuşdur.

Hüseynağa Əsgərzadə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə xüsusi fəallıq göstərib. 1992-ci ildən Müsavat Partiyasının bərpa mərkəzinin üzvlərindən və Şəki rayon təşkilatının təmsilçilərindən biri olub. Hüseynağa bəy Şəki rayonunda müsavatçılıq ideyalarının yayılmasında uzun illər yorulmadan çalışmışdı. O, ləyaqətli və əqidəli bir insan idi. İş və partiya yoldaşları onu özlərinə səmimi və sədaqətli dost hesab edirdilər. Hüseynağa bəy Azərbaycanda demokratiya, insan haqları və azad seçki uğrunda fədakarlıqla mübarizə aparırdı. Dəfələrlə təzyiqlərə və repressiyalara məruz qalsa da, əqidəsindən və haqsızlığa qarşı mübarizə yolundan dönməmişdi.

Belə bir insanın sıralarımızdan getməsi həm mərhumun yaxınları, həm də əqidə dostları üçün ağır itkidir.

Hüseynağa Əsgərzadənin əziz xatirəsi ziyalı, əqidəli, ləyaqətli və mübariz bir insan kimi müsavatçıların qəlbində əbədi olaraq yaşayacaqdır.

Allah rəhmət eləsin!

İsa Qəmbər və Müsavat Partiyasının Divanı

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33

«QAYA MƏTBUAT YAYIMI» MMC!

İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:

■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

Ən başlıcası gündəlik

«Yeni Musavat» qəzetinə–0,40 man

və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.

■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, Telefonla zəng etməyiniz kifayətdir:

Bakı şəh. 564-63-45 598-35-22

Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur: mobil: (050)-235-23-41

# DİN Sumqayıtdakı olaya reaksiya verdi

## Ehsan Zahidov: "Yalan və böhtandır..."

Azərbaycan Premyer Liqasının 2014/15-ci il mövsümünün 1-ci turu çərçivəsində avqustun 10-da Sumqayıtda keçirilən "Sumqayıt - "Qarabağ" matçında rüsvayçı halın yaşandığı bildirilir. Məlumata görə, komandalarını dəstəkləmək üçün Sumqayıta gələn bir qrup "Qarabağ" azarkeşi əllərində "Şəhidlər ölməz, vətən bölünməz!" plakatını stadiona keçirmək istəsələr də, polis buna imkan verməyib.



Ehsan Zahidov

Bu zaman azarkeşlərlə polislər arasında mübahisə yaranıb. Azarkeşlər bildiriblər ki, onlar vətən uğrunda şəhid olan əsgərlərimizin ruhu naminə bu pankartı hazırlayıblar. Lakin Sumqayıt polisinin buna cavabı rüsvayçı olub: "Nə şəhid?! Bizə şəhid lazımdır?! Sizə dedilər ki, yığışdırın bu plakatı..."

Olayla bağlı musavat.com-a münasibət bildirən **DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovniki Ehsan Zahidov bunları deyib:** "Həmin futbol matçında yarışı izləmək üçün gələnlər arasında bir-iki nəfər idmana, futbola heç bir aidiyyəti olmayan şüarlar yazılmış plakatları stadiona keçirməyə cəhd edib. Qanunların aliliyini təmin edən polis əməkdaşları mövcud təlimata uyğun olaraq bu cür plakatların tribunalara daşınmasına haqlı olaraq imkan verməyiblər. Etiraf etmək lazımdır ki, idman arenalarını, müqəddəs məkanları, ziyarətgahları siyasət meydanına çevirmək məqsədə müvafiq sayıla bilməz. O ki qaldı bəzi KİV-lərdə həmin məsələ ilə əlaqədar polisin hərəkətinin rüsvayçılıq kimi dəyərləndirilməsinə, bu ən azından ölkəmizin sürətli inkişafını, sabitliyi gözü götürməyənlərin bilərəkdən ortaya atdıqları bir təxribat xarakterli böhtandan başqa bir şey deyil. Stadiona gətirilən "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarına guya polislər tərəfindən saygısızlıq göstərilməsi də yalan və böhtandır. Xalqımız yaxşı xatırlayır və bilir ki, doğma Qarabağda torpaqlarımızın, orada yaşayan vətəndaşlarımızın düşməndən müdafiəsinə ilk dəfə qalxan, bu yolda ilk şəhidlər verən məhz polis orqanları olub. Biz Azərbaycan polisi olaraq şəhidlərimizin müqəddəs ruhları qarşısında həmişə baş əymişik və bundan sonra da canımız-qanımız bahasına olsa belə, vətənimizin hər qarış torpağı uğrunda mübarizə aparmağa hazırıq".

❑ NURLAN



Tunay Əliyeva

# Azərbaycanlı aparıcıya 3 illik həbs verildi

**Space TV-də yayımlanan "Hava haqqında məlumat" verilişindən tanıdığımız, hazırda isə ATV kanalında yayımlanan "Aydın səs"in aparıcısı Tunay Əliyevanın adı cinayətdə hallanır.**

"Qafqazinfo"ya daxil olan məlumata görə, Tunay Əliyeva təxminən bir il əvvəl idarə etdiyi avtomobillə adam vurub.

Belə ki, Yasamal rayonunda xanım aparıcının idarə etdiyi avtomobilin qarşısına qəfildən sərxoş kişi çıxıb. İdarəetməni itirən aparıcı piyadanı vurub, o isə hadisə yerində keçinib.

Faktla bağlı cinayət işi açılıb, məhkəmə teleaparıcıya 3 illik şərti (cəza) həbs qərarı verib.

# Maştağadakı yol qəzasında dörd nəfər öldü

**Bakıda ağır yol qəzası baş verib. Sabunçu rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Maştağa qəsəbəsində qeydə alınıb.**




Bakı şəhər sakini, 24 yaşlı Süleyman Həbibov idarə etdiyi "VAZ-2107" markalı, 90 NP 360 dövlət nömrə nişanlı maşınla yolu keçən piyada, 1978-ci il təvəllüdlü Zahid Kəlbiyevi vurub. Daha sonra idarəetməni itirən sürücü maşını yol kənarındakı "KamAZ" markalı yük maşınına çırpıb.

Nəticədə sürücü S.Həbibov və piyada aldıqları xəsarətdən hadisə yerindəcə dünyasını dəyişiblər.

"VAZ-2107"də olan iki sərnişin isə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Reanimasiya şöbəsinə yerləşdirilən Musa Məmmədov və Mircəfər Əsgərovun həyatlarını xilas etmək mümkün olmayıb.

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Nəftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



# Ermənilər Azərbaycan əleyhinə aksiyalara başladılar

**Ermənistan hərbi birləşmələrinin kəşfiyyat-diversiya qruplarının qoşunların təmas xəttində Azərbaycan Ordusunun postlarına hücumundan sonra aldıqları adekvat cavabdan narahat olan erməni ictimaiyyəti sosial şəbəkələrdə aksiyaya başlayıb.**

Aznews.az xəbər verir ki, tarixi Azərbaycan torpaqlarında və de-fakto bizə məxsus ərazilərdə həyata keçirdikləri qətliamları, terror aksiyalarını ört-basdır etmək istəyən ermənilər öz yalanlarını indi də sosial şəbəkələr vasitəsilə, fərqli şəkildə təqdim etməyə çalışırlar.

Azərbaycan Ordusunun işğalçı erməni hərbi birləşmələrinə endirdiyi əks zərbələri müharibənin başlanması kimi bəyan edən aksiya təşkilatçıları guya, hücumları dayandırmağı tələb edirlər.

Erməni mediası yazır ki, sosial şəbəkələrdə yayılan bu aksiya ABŞ-da "Ay Data" qrupu tərəfindən təşkil edilib. Kampaniya təşkilatçıları dünyadakı ermənilər də müraciət edərək aksiyada iştirak etməyə çağırıblar.

Həyasızcasına faktları inkar edən müraciət müəllifləri yenə də erməniləri məzlum xalq kimi təqdim etməyə çalışıblar: "Azərbaycanın Ermənistan və Dağlıq Qarabağ istiqamətindəki hücumları son 20 ilin ən dəhşətli əməliyyatı kimi qiymətləndirilir. Bu əməliyyat zamanı onlarla insan dünyadan köçüb və ermənilər müharibə ilə hədələnib".

**Ermənilər ATƏT-in Minsk Qrupunun həmsədrlərinə müraciət ediblər.**

# Bakıda ər arvadını öldürdü

**Bakıda qətl törədilib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, avqustun 12-də Xəzər rayonunun Binə qəsəbəsində Layiq Axundov yaşadığı evdə ailə-məişət münaqişəsi zəminində arvadı Lətifəni bıçaqla qətlə yetirib.**

Xəzər Rayon Polis İdarəsinin 2-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində L.Axundov tutulub.

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# İntiqam Əliyevin apelyasiya şikayəti təmin edilmədi

## Qızıl Xaçın nümayəndələri ona və Leyla Yunusa baş çəkdilər



İntiqam Əliyev



Leyla Yunus

**Məlum olduğu kimi, iyulun 30-dan etibarən Azərbaycanda kütləvi həbs dalğası həyata keçirilir. Artıq bu dalğada indiyə qədər Leyla və Arif Yunus, Rəsul Cəfərov və son olaraq, İntiqam Əliyev kimi tanınmış simalar həbs olunub. Yerli və beynəlxalq təşkilatlar həyata keçirilən kütləvi həbsləri pisləyərək, həbs olunanların dərhal azadlığa buraxılmalarını tələb edirlər.**

"Amnesty İnternational" beynəlxalq hüquq müdafiə təşkilatı həbsdə olan hüquq müdafiəçisi İntiqam Əliyevi vicdan məhbusu elan edib. Bu barədə təşkilatın saytında məlumat yerləşdirilib.

Məlumatda deyilir ki, İ.Əliyevin barəsində seçilmiş qərar saxta ittihamlara əsaslanır: "Amnesty İnternational" hesab edir ki, bu həbs birmənalı şəkildə İ. Əliyevin insan haqlarının müdafiəsi sahəsindəki fəaliyyəti ilə əlaqədardır. "Amnesty İnternational" onu vicdan məhbusu hesab edir".

Məlumata İ.Əliyevin həbsinin detalları da əlavə olunub.

İ.Əliyevin həbs olunduğu ilk günlərdə karantində saxlanılması barədə xəbər vermişdik. Hüquq müdafiəçisi artıq kameraya köçürülüb. Bu barədə onun oğlu Nəcmin Əliyev sosial şəbəkədə status paylaşıb: "Vəkil Anar Qasımlı iyulun 12-də atamla görüşüb. İyulun 11-də karantindəki saxlanma şəraiti ilə bağlı məlumat yayıldıqdan sonra, Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri onunla görüşməyə gedib. Görüşdən sonra 4 nəfərlik kameraya keçirilib, şəraitin yaxşı olduğunu deyir. Nümayəndələr rəhbərliyə çatdırmaq üçün xüsusi xahiş olub-olmadığını soruşublar.

Avqustun 12-də İntiqam Əliyevlə görüşən **vəkil Anar Qasımlı** görüş barədə bunları deyib: "İntiqam müəllimin kameraya köçürülməsi doğrudur. Biz srağagün onun acınacaqlı saxlanma şəraiti barədə məlumat yayandan sonra, Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri təcridxana gedərək, vəziyyətlə tanış olublar. Bundan sonra onu kameraya köçürüblər. Hazırda 4 nəfərlik kamerada saxlanılır. Saxlanma şəraitindən heç bir şikayəti yoxdur. Artıq otağın havalanması cəhətdən problem yoxdur. İntiqam müəllimlə işin müdafiə taktikası və görəcəyimiz işlər barədə danışdıq".

**Onu da qeyd edək ki, avqustun 13-də İ. Əliyevin həbsindən verilən apelyasiya şikayətinə baxılıb.** Hakim Əmir Bayramovun sədrliyi ilə keçirilən prosesdə Hüquq Maarifçiliyi Cəmiyyəti rəhbəri haqqında birinci instansiya məhkəməsinin qərarı qüvvədə saxlanılıb. Vəkillərin məhkəməyə təqdim etdiyi apelyasiya şikayətində həbs qətimkan tədbirinin ləğv olunması göstərilib.

**Məhkəməyə gətirilən İ.Əliyev çıxışında həbsinin bir daha siyasi sifarişli olduğunu deyib.** Onun sözlərinə hakimiyyət bu həbslə Avropa Məhkəməsinə göndərilən şikayətlərin qarşısını almaq istəyir. Hüquqşünas məhkəmələrdən ədalət gözləmədiyini qeyd edib.

Həbs edilənlərdən Leyla Yunusun səhhəti günü-gündən pisləşir. Bu barədə artıq ikinci həftədir ki, Bakı İstintaq Təcridxanasında saxlanılan şəkərli diabet xəstəsi olan L.Yunusun özü dostlarına məlumat verib.

Vətəndaş cəmiyyəti fəalı, həkim Azad İsazadənin "Turan"a verdiyi məlumata görə, L.Yunusa ağrıkəsici iynələr vururlar.

L.Yunus həmçinin bildirib ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin əməkdaşları ona baş çəkib. Bununla belə, prokurorluq hələ də Leyla və Arif Yunusların dostlarının onlara bağlama ötürməyə icazə vermək xahişinə cavab verməyib.

Öz növbəsində Ədliyyə Nazirliyinin Penitensiar Xidməti L.Yunusun saxlanma şəraiti ilə bağlı bildirib ki, müasir standartlara uyğun inşa edilmiş və beynəlxalq müşahidəçilərin də daim yüksək qiymətləndirdikləri Bakı İstintaq Təcridxanasındakı kameralarda hava çatışmazlığı ilə bağlı problem mövcud deyil. Bütün kameralarda Cəza İcra Məcəlləsinin və Daxili İntizam Qaydalarının tələblərinə uyğun şəkildə təmiz hava axınının mövcudluğu təmin edilir. Bununla yanaşı, təqsirləndirilən şəxs gəzinti hüququndan istifadə edir.

Beynəlxalq təşkilatlardan "Amnesty İnternational" Yunusların səhhəti ilə bağlı növbəti dəfə narahatlıqlarını dilə gətirib. Təşkilatın avqustun 12-də verdiyi bəyanatda deyilir ki, Azərbaycan hakimiyyəti şəkər xəstəliyi və böyrək çatışmazlığı ilə bağlı Leyla Yunusa tibbi yardım göstərməkdən və ya dərman verməkdən imtina edir. "Amnesty İnternational" bildirir ki, 57 yaşlı Leyla Yunus ağrılardan və zəiflikdən şikayətlənir, ancaq təcridxana rəhbərliyi onu xəstəxanaya köçürmür.

**Təşkilat onların həbsdən buraxılmasını tələb edir.**

❑ **C.ABBASLI**

# "Dustağın səhhəti üzündən türmədə ölməsi ciddi qanun pozuntusudur"

## Ölkə həbsxanalarında məhbusların dünyadan köçməsi adi hal alıb; Leyla Yunus onlardan biri ola bilər...



Müzəffər Baxış

**Son günlərdə mətbuatın gündəmində olan əsas məsələlərdən biri də həyata keçirilən kütləvi həbslər və bu həbs dalğasında azadlıqdan məhrum edilmiş şəxslərin səhhətində yaranan problemlərdir. Hazırda Leyla və Arif Yunus, İntiqam Əliyevin həyatları təhlükədədir. Belə ki, əvvəllərdə xəstəliklərlə çarpışan hər üç tanınmış simanın təcridxana həyatından sonra səhhətləri daha da pisləşib.**

İndiyə qədər məhkum edilmiş şəxslərin səhhətlərində problemlər yaranması hallarına çox rast gəlinib. Hətta bu səbəbdən həyatını itirən məhbuslarda az deyil. Müsavat Partiyasının 20 yaşlı gənc üzvü Alqayıt Məhərrəmov, "Tolişi sədo" qəzetinin baş redaktoru Novruzəli Məmmədov, ASDP sədrinin müavini Aypara Əliyev, ADP üzvü Faina Kunqurova, Ədalət partiyasının üzvü Fəzail Tağıyev, Ayaz Mütəllimovun tərəfdarı kimi tanınan Hacı Seyfəl Babayev və başqalarını misal göstərmək olar. Siyahını uzatmaqda olar. 2010-cu ilə qədər Azərbaycan həbsxanalarında təkcə 54 siyasi məhbus dünyasını dəyişib.

**Hazırda hüquq müdafiəçisi Leyla Yunus bu təhlükə ilə üz-üzədir.** Belə ki, şəkər xəstəliyindən əziyyət çəkən hüquq müdafiəçisinin səhhəti günü-gündən ağırlaşır. Bununla bağlı aidiyyəti orqanlara edilən müraciətlər cavabsız qalmaqdadır. Bəs, qanunvericilikdə səhhəti pisləşən məhbusun azadlığa buraxılmasına dair hər hansı bir müddəa varmı?

**Hüquqşünas Müzəffər Baxış** hesab edir ki, səhhətlə bağlı həbs qərarı verilməsi mümkün olmayan şəxs barəsində bu tədbirin seçilməsi qanunsuzluqdur: "Ümumiyyətlə, səhhəti ilə əlaqədar hər hansı bir şəxs haqqında həbs qətimkan tədbirinin seçilməsi mümkün deyilsə, həmin şəxs barəsində bu qərarın verilməsinin özü qanunsuzluqdur. Əgər istənilən şəxs hakim nəzarətindədirsə yaxud təcridxana həyatı onun üçün təhlükəlidirsə, həbs qərarı seçilə bilməz. Bu məsələlər ölkəmizdə qanunla tənzimlənmir. Sadəcə, siyasi iradə ilə həyata keçirilir. Əgər təqsirləndirilən şəxs istintaqa cəlb olunursa, cinayət məcəlləsinin tələblərinə görə, onun barəsində 10 növdə həbs qətimkan tədbiri seçilə bilər. Səhhətinə görə, ümumiyyətlə, həbs qətimkan tədbiri seçilməyə də bilər. Təəssüflər olsun ki, Azərbaycanda müstəntiqlər daha çox təqsirləndirilən şəxs haqqında həbs qərarının verilməsinə çalışırlar".

> **Müzəffər Baxış: "Əgər şəxs hakim nəzarətindədirsə, yaxud təcridxana həyatı onun üçün təhlükəlidirsə, həbs qərarı seçilə bilməz..."**

**Hüquqşünas onu da qeyd etdi ki, istənilən halda məhkəmə qərar verdiyi şəxsin səhhətini ciddi araşdırmalıdır:** "Ondan sonra həbs qərarının verilib-verilməməsi aydın olur. Əgər səhhəti imkan vermirsə, müstəntiq həbs edilən şəxs barəsində vəsatət hazırlayıb, prokurora təqdim etməlidir. Bütün bunlardan sonra əgər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilibsə, bu qərar dəyişdirilə bilər yaxud başqası ilə əvəzlənə bilər. Amma inanmıram ki, prokurorlar belə bir təqdimatla məhkəməyə müraciət etsinlər. Cinayət Məcəlləsinin 78-ci maddəsinə görə, əgər şəxs məhkum olunubsa, xəstəliyi cəza çəkməsinə imkan vermirsə, 78.1 maddəsinə görə, cəzadan yaxud cəzanın qalan hissəsindən azad olunur. Cəzanın çəkilməsinə mane olan xəstəliklərə görə məhkəmə məhbusu azad edə bilər. Bu xəstəliklər Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Müəyyən olunmuş xəstəliklərə görə, məhkumu azad etmək səlahiyyətinə məhkəmələr malikdir".

**Müzəffər Baxış məhbusun xəstəliyi üzündən həbsxanada vəfat etməsini ciddi qanun pozuntusu adlandırdı:** "Bir növ bunlar vəzifədən sui-istifadədir. Kimsə öz vəzifə borclarını yerinə yetirmir, hər hansı şəxsin vəfat etməsinə səbəb olursa, bu həmin şəxsin hüquqlarının əhəmiyyətli şəkildə pozulması deməkdir. Azərbaycanda buna nail olmaq qeyri-mümkündür. Çünki onu necə sübut edəcəksən? Bunu prokurorluq orqanları araşdırmalıdır. Lakin bəllidir ki, Cəzaçəkmə Müəssisənin əməkdaşının tərəfini tutacaqlar. Belə şəxslərin ölkəmizdə cinayətə cəlb olunması qeyri-mümkündür".

❑ **CAVANŞİR**

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014

# Müsavat başqanı müşavirinin partiyadan müəmmalı istefası

## Hüseyn Məlik: "İstefa verirəm... Amma səbəbini demirəm"; Partiya funksionerləri müşavirin gedişi ilə bağlı öz mövqelərini açıqlayıblar



Hüseyn Məlik

**Xəbər verildiyi kimi, avqustun 12-də Müsavat başqanının müşaviri Hüseyn Məlik partiyadan istefa verib. Bu barədə sabiq müşavir özü sosial şəbəkədə məlumat yayıb. Onun istefasının səbəbləri hələ də müəmmalı olaraq, qalır. Artıq partiyadaşları tərəfindən Hüseyn Məlikin ünvanına sərt ittihamlar səsləndirilir. Eyni zamanda onun müdafiəsinə qalxaraq, partiyadan getməsinə üzülənlər də az deyil.**

**Hüseyn Məlikin istefası ilə bağlı yazdığı status bundan ibarətdir:** "2003-ildən hal-hazıra qədər Müsavat Partiyasının üzvü olduğumdan qürur hissi duyduğumu, bu andan etibarən partiyada fəaliyyətimi dayandırdığımı bəyan edirəm. Partiya ilə əlaqələrimin yenidən qurulmasının mümkünlüyünün qurultayın qərarından asılı olacağını bildirirəm. Bütün dostlarıma uğurlar arzulayıram".

Başqan müşavirinin istefası ilə bağlı partiya funksionerləri mətbuata öz mövqelərini açıqlayıblar.

**Başqan müavini Gülağa Aslanlı** kiminsə sözü ilə yazılan yazıya münasibət bildirmək istəmədiyini bildirdi: "Hüseyn Məlikin statusunu oxumamışam. Amma dünən maraqlanmışam. O, partiyaya ya istefa, ya da fəaliyyətini dondurması ilə bağlı hər hansı bir məlumat verməyib. Ona görə də, onun fikirlərinə şərh verməyim düzgün deyil. Mən sənəd, faktlara əsasən, şərh verməyi xoşlayıram. Amma kiminsə sözü ilə, kiminsə yazısı olan yazılara şərh vermirəm".

**Partiyanın Divan üzvü Tural Abbaslı** da reallaşan istefa ilə bağlı öz münasibətini açıqlayıb. O, AzVision.az-a bildirib ki, eyni rayon təşkilatında təmsil olunan partiya üzvü kimi Hüseyn Məliklə görüşüb, məsələyə aydınlıq gətirəcək: "Bu, Hüseyn bəyin öz qərarıdır, amma mən bir Divan üzvü olaraq, bunu istefa kimi qəbul etmirəm. Çünki partiyanın nizamnaməsində qeyd olunur ki, partiyadan istefa ya şifahi şəkildə, ya da yazılı şəkildə bildirilməlidir. Amma nizamnamədə qeyd olunmur ki, sosial şəbəkədən istefa verilə bilər. Belə bir ifadə yoxdur deyə, Hüseyn bəyin bu fikrini rəsmi qəbul etmirik. Onun partiyadan uzaqlaşmasına elə bir səbəb yoxdur. Bu, mənim fikrimdir, amma yəqin ki, onun özünün səbəbləri var. Hüseyn bəyin insanlarla xoş münasibətləri olub. Hüseyn bəy ümumiyyətlə, aqressiv, hamıya düşmənçilik edən insan deyil ki, belə bir səbəblərdən istefa versin".

**T.Abbaslının sözlərinə görə, İsa Qəmbərin Hüseyn bəyi partiyadan uzaqlaşdırması haqqında yayılan məlumatlar doğru deyil:** "Mətbuatda yayılanlar yalandır. Başqanın müşavirələri arasında partiya üçün ən böyük işləyən və ən çox xeyir gətirən müşavirlərdən biridir. Əgər başqan çıxardası olsaydı, hansısa yaramaz fəaliyyətinə görə, kifayət qədər müşaviri var idi, nəinki Hüseyn bəy. Onun müşavirlikdən uzaqlaşdırılması ilə bağlı İsa bəyin fikri olmayıb. Əgər belə bir şey olsaydı, rəsmi bəyanat şəklində mətbuatda məlumat yayılardı ki, İsa bəy filan müşavirini vəzifəsindən azad etdi".

**Hüseyn Məlikin özü də istefası ilə bağlı danışmaqdan imtina edib. O, yalnız müşavirlikdən azad edilməsi haqda İsa Qəmbərin qərarı ilə bağlı teleqraf.com-a münasibətini açıqlayıb:** "Axşam saatlarında eşitdim. Ancaq mən bundan bir neçə saat əvvəl istefa vermişdim. Odur ki, istefadan sonra partiyada hansısa addımın atılması, sərəncam verilməsi elə də əhəmiyyətli deyil. Bu istefadan sonra baş verib".

**İstefası haqqında qəti fikir nümayiş etdirən Hüseyn Məlik söyləyib ki, istefası təsadüfən və qəfil olmayıb:** "Amma səbəbi demirəm. Mən həmişə demişəm ki, siyasi karyeram İsa Qəmbərlə bağlıdır".

**Hüseyn Məlikin özünün bu məsələyə mövqeyini öyrənməyə çalışsaq da, o israrla münasibət bildirmək istəmədiyini söylədi. Yaxın zamanlarda mövqeyini və istefa səbəblərini açıqlayacağını bildirdi.**

❑ Cavanşir ABBASLI

# Abidə şəxsiyyət

**Elə şəxsiyyətlər var ki, onların adıqları qurunəfəs belə milyonları mübarizəyə səsləyir. Hələ sağlıqlarında əfsanəyə çevrilən belə böyük simalardan biri də Cənubi və Şimali Azərbaycanın fəxri olan, görkəmli kardioloq, ədəbiyyatşünas, ictimai-siyasi xadim Cavad Heyət idi. Onun vəfatı vahid Azərbaycan ideyası daşıyıcılarını sarsıtmaya bilməzdi.**

Milyonlar üçün bir nümunə olan bu şəxsiyyətin varlığı Təbriz və Bakını doğmalaşdırırdı.

Təəssüflər olsun ki, Şimali Azərbaycanda Cavad Heyət yetərincə tanınmayıb.

Böyük şəxsiyyətin fəaliyyətin önəmli hissəsi rəsmi Tehranın təqiblərindən qurtulmaq üçün pərdələnmişdi. Lakin C. Heyət o simalardandır ki, onun tərcümeyi-halı belə dillərdə əzbər olmalıdır.

1925-ci il mayın 24-də Təbriz şəhərində anadan olan Cavad Heyət ilk orta təhsilini İranda alıb.

Vurğunu olduğu türkçülük ideyası onu Türkiyəyə aparıb. 1946-cı ildə İstanbul Universitetinin tibb fakültəsini bitirib. Həmin universitetdə 3 il çalışdıqdan sonra təhsilini 4 il müddətində Paris Universitetində davam etdirib. Yüksək dərəcəli cərrah ixtisasına yiyələnərək 1952-ci ildə Tehrana qayıdıb və orada öz klinikasını açıb. Azərbaycançılıq ideyasını yaşatmaqla yanaşı C. Heyət eyni zamanda elmdə də olduqca yüksək zirvələri fəth edə bilib. C. Heyət 1954-cü ildə qapalı ürək əməliyyatı, 1962-ci ildə isə İranda ilk dəfə açıq ürək cərrahiyyəsini müvəffəqiyyətlə həyata keçirib. Bundan sonra o, İranda ilk dəfə ürək qapaqlarını dəyişdirmə, heyvanlarda ürək dəyişdirmə, Tehranda ilk dəfə insanda böyrək dəyişdirmə əməliyyatını uğurla həyata keçirib.

Böyük azərbaycanlının əsas fəaliyyətlərindən biri də dil və milli kimliyin qorunub saxlanıla bilməsi istiqamətindəki xidmətləridir.

"Varlıq" dərgisini təsis etməklə Cavad Heyət Cənubi Azərbaycanda milli kimliyin qorunması prosesində əsl fədakarlıq nümayiş etdirib. Filologiya və türkologiya sahəsində "Azərbaycan ədəbiyyat tarixinə bir baxış", "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Türk dili və ləhcələrinin tarixi", "İki dilin müqayisəsi" kitablarının müəllifi olan alim "Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda" əsərində türk dilinə, Azərbaycan ədəbiyyatına yuxarıdan aşağı baxanları darmadağın edə bilib.

Cənubi Azərbaycanda oyanış hərəkatını daima dəstəkləyən C. Heyət anlayırdı ki, hər bir millətin kimliyi, ədəbiyyatı, mədəniyyəti onun dilindən başlayır. Odur ki, İranda türk dilinin qorunması, milli varlığın hifz olunmasında C. Heyətin xidmətləri əvəzolunmazdır.

C.Heyət bir simvol, bir bayraq idi. Belə olaraq da qalacaq. Odur ki, bu dahi şəxsiyyətin anım mərasimi onun adına layiq olmalıdır. Vahid Azərbaycan ideyasını yaşadan, əsərləri ilə türk dilinə abidə ucaldan bu dahi şəxsiyyəti anmaq 50 milyon Azərbaycan türkləri üçün önəmli olmalıdır.



Cavad Heyət

C.Heyət Qarabağ dərdini içində gəzdirən bir ziyalı idi. 1993-cü ildə Türkiyənin sabiq prezidenti Süleyman Dəmirələ yazdığı açıq məktubda"... Ya xalqımıza qurtuluş, ya da özümə ölüm istəyirəm", sözləri bir mübarizə rəmzinə çevrildi.

C.Heyət həmin məktubda Azərbaycanı düşdüyü fəlakətli vəziyyətdən çıxarmaq üçün səyləri gücləndirməyə, "böyük dövlətlərin silahları ilə təpədən-dırnağadək silahlanmış ermənilər qarşısında azərbaycanlıları müdafiə edib soyqırımına mane olmağa" çağırırdı.

C.Heyət Qarabağ problemi və 20 Yanvar faciəsi ilə bağlı yüzlərlə məqalənin müəllifidir.

"Silahsız, ordusuz və əsarətdən yenicə çıxmış qardaşlarımızı yalqızmı buraxmalıyıq? Erməni -daşnak ordusunun onların yurdlarına həyasızcasına təcavüzünə, qadın və kişilərini, qoca və uşaqlarını öldürmələrinə tamaşaçımı qalacağıq? Bu, bizlərin şərəfinə, türklüyə və müsəlmanlığa, nəhayət, insanlığa yaraşarmı ?", -deyə hayqıran C. Heyət 20 Yanvar faciəsi barədə bu sözləri yazırdı: "Ölkənin namuslu xalqının uzun əsrlərdən baş alıb gələn milli-tarixi istəklərinə ədalət və məntiq ilə cavab verməк yerinə güllə və tankla cavab verildi..."

**C.Heyət Güney və Quzey Azərbaycan üçün əlindən gələni etdi. Hazırkı mərhələdə Bakının və Təbrizin mərkəzi meydanlarında bu şəxsiyyətə abidə ucaldılması tələblərinə bu gündən başlamaq lazımdır. Onsuz da öz parlaq fəaliyyəti ilə C. Heyət özü bir abidəyə çevrilib...**

❑ Azər RƏŞİDOĞLU

# "Ermənistanı güzəştə məcbur etmək mümkündür"

## Elxan Şahinoğlu: "Kreml təzyiq etmirsə, deməк həmin təzyiq mexanizmlərini biz hərəkətə gətirməliyik"

**Azərbaycan və Ermənistan ordusu arasında döyüşlər və ardınca baş tutan Soçi danışıqlarından sonra münaqişənin həlli ilə bağlı bir sıra versiyalar gündəmə gəlib. Əsas sual isə münaqişənin həlli istiqamətində hansı addımların atılması və bu prosesin necə aparılmasıdır. Ortada isə bir sıra versiyalar dolaşır.**

Ötən günlərdə hətta münaqişənin pul vasitəsilə həll oluna biləcəyi məsələsi gündəmə gəlib. Belə ki, Rusiya mediasının xəbərində Dağlıq Qarabağın geri qaytarılması üçün Azərbaycanın Ermənistana 5 milyard dollar tranş verməyə hazır olduğu qeyd edilib. Bu pulun müxtəlif kanallarla Ermənistan dövlətinə ödənilməsi təklif olunub.

**Bundan başqa məhz Rusiyanın Azərbaycanın Gömrük İttifaqına üzv olması üçün Ermənistana təzyiq göstərib, ən azı bir neçə rayonu geri qaytarmağa razı salacağı ilə bağlı xəbərlər dövriyyəyə buraxılıb.** O da aydındır ki, Rusiya Ermənistanın məhz Azərbaycanla birlikdə Gömrük İttifaqına daxil olmasını istəyir. Ancaq erməni cəmiyyəti güzəştə hazırdırmı? Rusiyanın təzyiqi və ya ödəniləcək böyük məbləğdə vəsait Ermənistan ictimaiyyətini, siyasi və hərbi dairələrini Azərbaycan torpaqlarının geri qaytarılmasına razı sala bilərmi? Ümumiyyətlə, hansı halda Ermənistan cəmiyyəti işğal olunmuş Azərbaycan torpaqlarının geri qaytarılması və ədalətli sülhün bərqərar olması ilə razılaşa bilər? Yeri gəlmişkən, ötən həftə cəbhədə döyüşlər qızışanda Azərbaycan cəmiyyətindən fərqli olaraq Ermənistan cəmiyyətində müharibə çağırışları xeyli dərəcədə zəif idi. Əksinə, erməni ictimaiyyəti savaş əleyhinə aksiyalar keçirdi, hər vasitə ilə yeni müharibəyə qarşı olduğunu bəyan etdi. Hətta erməni katalikosu ikinci Qaregin Şeyxülislama məktub yazaraq atəşkəs çağırışı etdi.



Elxan Şahinoğlu

**Siyasi şərhçi Elxan Şahinoğlu** deyir ki, indiki halda Ermənistan yalnız Rusiyanın təzyiqi ilə geri addım atmağa və işğal olunmuş torpaqları qaytarmağa vadar edilə bilər: "Ermənistan prezidenti Serj Sərkisyana təzyiq olmasa o, Dağlıq Qarabağ münaqişəsinin həllində geri addım atmayacaq, Qarabağ ətrafındakı rayonlarımızın boşaldılmasına yaşıl işıq yandırmayacaq. Sərkisyanın və ümumiyyətlə Ermənistandakı hakim və hərbi zümrənin çəkindiyi yeganə güc Kremldir. Moskvadan əmr gəlsə məcburiyyət qarşısında geri addım atarlar. Ancaq məsələ burasındadır ki, Kreml münaqişənin ədalətli həllində maraqlı deyil. Çünki, bu halda Kreml gələcəkdə həm Ermənistan, həm də Azərbaycana təsir imkanlarını itirəcək. Dağlıq Qarabağ problemi var deyə həm Bakı, həm də İrəvan Rusiya ilə hesablaşır. Münaqişə olmasa Ermənistan tədricən Azərbaycan, Türkiyə, Gürcüstan üçlüyünə qoşulacaq ki, bu da Moskvanın maraqlarına cavab vermir. Soçi görüşü bunun bariz nümunəsidir. Rusiya prezidenti Putin Soçidə tərəflər arasında inamı artırmaq üçün xoş jest edə bilərdi. Məsələn, Putin Sərkisyanı girov götürülən kəlbəcərliləri sərbəst buraxmağa razı salsaydı, bu, tərəflər arasında körpü yaradılmasına yönəlik balaca da olsa addım olardı. Ancaq Putin bunu da etmədi. Çünki, Kreml sahibi hadisələri sürətləndirmək istəmir. Özü də tədbirdə dedi ki, Dağlıq Qarabağ SSRİ-dən miras qalmış problemdir. Bu isə o deməkdir ki, 20 il gözləmisiniz, bir az daha gözləyin".

**O ki qaldı Sərkisyanın güzəşt limitinə, E.Şahinoğlu deyir ki, Ermənistanın siyasi elitası təzyiq olmadan Qarabağ ətrafındakı rayonları boşaltmayacaq:** "Kreml təzyiq etmirsə, demək həmin təzyiq mexanizmlərini biz hərəkətə gətirməliyik. Bu mənim şəxsi fikrimdir və bir bəziləri bu fikrimi bölüşməyə bilər. Ancaq Sərkisyana güzəştə biz məcbur etməliyik, bunun üçün isə ordumuz ən azı Ağdama daxil olmalıdır. Bəli, bundan sonra vəziyyət qarışa bilər, hətta Tovuz və Qazax istiqamətində də çətinliklər yaşaya bilərik. Risklər çoxdur. Ancaq hesablanmış riskə də getmədən işğalçı torpaqları azad edən deyil. Dünyanın istənilən ölkəsi güclə hesablaşır, gücün varsa, şərtlərini də diktə edirsən və qarşı tərəf də bu amillə hesablaşır. Sərkisyan oturduğu yerdə nə Ağdamı, nə də digər rayonları boşaldan deyil. Bəlkə də bizim uğurlu bir həmləmiz Sərkisyanın da durumunu asanlaşdırar, yəni o, siyasi-hərbi elitaya və cəmiyyətinə müraciət edər ki, bəs sülhə nail olmaq üçün Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmalıdır. Erməni cəmiyyəti bu çağırışı qəbul edər. Ancaq təzyiq olmadan Sərkisyan Qarabağ ətrafındakı rayonları boşaldarsa, bu onun siyasi sonunu gətirər. Demək, Ermənistan daxilindəki situasiyanın xeyrimizə dəyişməsi də əslində bizim əlimizdədir".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014

# "Ərdoğanın Türkiyəsi fəlakət olacaq"

## Ömər Faruk Loğoğlu: "AKP hökuməti Qarabağ məsələsində Azərbaycanı tək qoyub"

**Türkiyənin Azərbaycandakı keçmiş səfiri, CHP sədrinin müavini Ömər Faruk Loğoğlu 10 avqust seçkiləri, eləcə də Türkiyənin diplomatik gündəmi ilə bağlı "Yeni Müsavat"ın suallarına cavab verib.**

***- Cənab Loğoğlu, 10 avqust seçkisində AKP-yə etiraz edən ciddi bir kəsim olsa da, qazanan yenə AKP namizədi oldu. Müxalifət qələbəsini niyə təmin edə bilmədi?***

- İçərimizə sinsə də, sinməsə də seçkinin sonuclarına saygı göstərməliyik. Önəmli olan Rəcəb Tayyib Ərdoğanın bu seçimdə və bundan öncəki "balkon konuşmalarında" da verdiyi vədləri yerinə yetirməsidir. Hələlik biz bu vədlərin yerinə yetirildiyini görməmişik. Mənim şəxsli görüşüm odur ki, Ərdoğan ötən 4 "balkon konuşması"ndakı kimi budəfəki vədlərinə də əməl etməyəcək. O çıxışda Türkiyə cəmiyyətinə yetərincə bölücülük mesajları verildi. Bizdə seçki gününə olan hesabatlarda MHP-nin seçki günü çox aşağı fəallıq göstərməsi haqqında bilgilər var. CHP-də də tərəddüd edənlərin bir hissəsi seçkini boykot edib. Ancaq CHP-lilər seçkiyə yüksək fazilə qatılıb. Seçkilərə ən ciddi təsir edən səbəb isə seçkinin tətil dönəmində keçirilməsidir. Tətildə olanlar seçkiyə gəlmədilər. 15 milyon insan səs verməyib. Xaricdəki vətəndaşlarımızın cəmi 18 faizə yaxını seçkiyə qatılıb. Xaricdəki vətəndaşlarımızın səsvermə faizinin aşağı olmasına həm də Yüksək Seçim Qurumunun prosedurları çətinləşdirməsi, seçki qutularını uzaq məsafələrdə qoyması da təsir etdi.

***- 30 mart seçkilərinə baxdığımızda CHP ilə MHP birlikdə 5 milyon səs itirib. Buna ortaq namizədin düzgün seçilməməsi səbəb ola bilərmi?***

- Bizim ortaq namizədimiz Ekmeleddin İhsanoğlu çox doğru bir seçim idi. Ancaq onun namizədliyini həm CHP-də, həm də MHP-də dəstəkləməyənlər vardı. Seçimin analizləri mütləq aparılacaq.

***- Ərdoğanın yaxın dönəm üçün hansı siyasət yürüdəcəyini düşünürsünüz? Siyasi müxalifət üzərində ağır basqılar olacağını gözləyirsinizmi, yoxsa, o, daha çox "paralel yapı" məsələsini çözməyə çalışacaq?***

- Ağır danışacam - Ərdoğan Türkiyəsi fəlakət olacaq. O, prezident səlahiyyətlərindən sonuna qədər yararlanaraq bütün rəqiblərini tamamilə sıradan çıxarmağa çalışacaq. Onun prezidentlik üsul-idarəsini Türkiyəyə tam şəkildə gətirəcəyini düşünürəm. İqtisadi rəqəmlər xaric Türkiyə toplumsal, xarici siyasət problemləri baxımından 2002-c il səviyyəsinə enib. Bunu CHP demir, uluslararası quruluşlar deyir. BMT-nin və digər nüfuzlu Avropa qurumlarının hesabatlarına görə, insan yaşamı keyfiyyəti, fikir və media azadlığı, özəl həyatın toxunulmazlığı kimi məsələsində Türkiyə ciddi şəkildə geriləyib. Türkiyənin bu durumdan asanlıqla çıxacağını düşünmürəm.

***- Bu seçkidə ciddi səs itirən müxalifətin toparlanaraq Ərdoğana etiraz etmək gücündə olması asan deyil. Müxalifətin bunun üçün hansı imkanları var?***

- Bu gün Türkiyə demokratiyanın qırıntılarını yaşayır. Onun qırıntıları belə bizim mücadiləmizin demokratik yolla davam etməsini əngəlləməyəcək. Ana müxalifət olaraq biz bu gündən parlament seçkilərinə hazırlıqlara başlayırıq. Bu seçki 2015-ci ilin iyun ayında keçirilməlidir. Bəzi dairələr bu tarixin önə çəkiləcəyini söyləyir. Məncə, buna heç gərək yoxdur. İyuna cəmi 10 ay qalıb. AKP 60 faizə yaxın səs alsaydı, seçki tarixi önə çəkilərdi. Ancaq indi belə bir durum yoxdur. Üstəlik AKP-nin özü yenidən şəkillənməlidir. Aydındır ki, bu, müəyyən bir müddət alacaq.

***- Sizcə, iqtidar partiyasının başına kim keçəcək?***

- Əhməd Davudoğlu ola bilər. Hər halda Ərdoğan tamamilə kontrolunda olan bir namizəd arayışındadır. Mənim daha bir qənaətim var. Ərdoğan prezidentliyə keçər-keçməz ard-arda xətalar etməyə başlayacaq. Bu ana qədər heç bir sərhəd tanımırdı, bundan sonra daha da olmayacaq şeylərə imza ata bilər.

***- Müxalifətin indiki rəhbərliyi ilə AKP-ni heç zaman siyasi səhnədən silə bilməyəcəyi, liderlərin istefadan başqa yolu olmadığı haqqında fikirlər var. CHP-də başqan dəyişdirmə müzakirələri gedirmi?***

- Kılıçdaroğlunun dəyişməsini istəyən çevrələr heç də müxalifətin güclənməsini arzulayanlar deyil. Partiya içərisində belə bir müzakirələr getmir. Məmnun olmayan



insanlar var, əlbəttə. Ancaq onlar bu məğlubiyyəti yalnız Kılıçdaroğluna deyil, partiyanın ümumi siyasətinə bağlayırlar. Məncə, Milliyyətçi Hərəkat Partiyasında durum daha çətindir. Çünki orada sistem daha avtoritardır. Baxçalıya qarşı çıxmaq mümkün deyil. CHP isə daha açıq, daha demokratik üsullarla idarə olunan partiyadır.

***- Siz bir dönəm Türkiyənin Azərbaycandakı böyükelçisi olmusunuz. Biz Qarabağla bağlı AKP-nin, MHP-nin mövqeyini bilirik. Ancaq CHP-nin bu məsələ ilə bağlı fikirləri ilə tanış deyilik. CHP sədri Kamal Kılıçdaroğlunun, bütünlükdə partiyanın Qarabağ problemi, Ermənistan-Türkiyə sərhədlərinin açılması ilə bağlı fikirləri nədir?***

- CHP bu məsələdə heç şübhəsiz Azərbaycanın yanındadır. Bizim mövqeyimiz Azərbaycanın mövqeyi ilə eynidir. Bu məsələ ilə bağlı daha çox mən açıqlamalar vermişəm. Bu məsələdə əsas olan Türkiyə iqtidarının mövqeyidir ki, biz bu mövqe ilə razı deyilik. Xarici işlər naziri Əhməd Davudoğlu ərəb dünyası ilə bağlı ciddi bir çalışma içərisindədir. Ancaq AKP bu mövqeni Qarabağ məsələsində sərgiləmir. Şama 200 dəfə getməsi ilə öyünən Davudoğlu Qarabağ məsələsinin nizamlanması üçün Bakıya, digər önəmli paytaxtlara neçə dəfə gedib? Minsk Qrupu ilə bağlı hansı işbirliyi təşəbbüsləri oldu? Rusiyaya, Amerikaya, Fransaya gedib bu məsələni masaya yatırdılarmı? Əksinə, Türkiyə-Ermənistan sərhədinin açılması məsələsini gündəmə gətirdilər, bunun üçün protokol belə imzaladılar. Çox yaxşı ki, bu siyasət iki səbəblə çökdü. Birinci səbəb Ermənistanın Azərbaycandan geri çəkilmək istəməməsi, ikinci səbəb isə bu məsələnin Azərbaycanla hərtərəfli müzakirə edilməməsi idi. AKP Qarabağ məsələsində Azərbaycanı tək qoyub. Azərbaycan Türkiyə üçün neft, təbii qaz məsələsi öndə olarkən önəmlidir. Biz bu siyasətin yanlış olduğunu düşünürük. Türkiyə-Azərbaycan münasibətləri təməl münasibətlərdən uzaqlaşıb. Baxdığınızda yaxın kimi görünür, əslində isə olması gərəkdiyi qədər yaxın deyil. Xalqlar yaxındır, iqtidarlar isə yalnız öz çıxarları olduğu zaman yaxınlaşma meylləri göstərməkdədir. Biz CHP olaraq Türkiyənin Azərbaycana daha çox ilgi göstərməsini istəyirik. Ancaq Ərdoğanın siyasəti ana müxalifətin istəklərinə tam tərs getməkdir. Bütün bu çatışmazlıqlara görə də Azərbaycan-Rusiya münasibətləri Türkiyə-Azərbaycan münasibətlərindən daha irəli gedib. Biz bu mənzərənin tamamilə tərsini görmək istəyirik.

***- Siz Türkiyənin tanınan diplomatlarındansınız. Ölkənin daha bir ciddi problemi 49 diplomatın İŞİD-in əlində əsir qalmasıdır. Bu məsələ necə çözülməlidir?***

- AKP iqtidarı bu məsələnin ictimai müzakirəsini məhkəmə qərarı ilə yasaqladığı üçün xalqın bu məsələyə ciddi təpkisi eşidilmədi. 2 aydan artıqdır diplomatlar əsirdir. Son gəlişmələrə görə, əsirlərin ailələri etiraz aksiyası keçirəcək. Biz bu məsələ ilə bağlı Türkiyə Böyük Millət Məclisində dəfələrlə müzakirələr açmışıq, hökumətdən hansı tədbirlərin görülməsi ilə bağlı hesabat tələb etmişik. Hesab edirdik ki, seçkilərdən öncə Ərdoğan həmin insanları əsirlikdən qurtaracaq. Ancaq bu təxminimiz tutmadı. Bu iqtidarın İŞİD-in bu qədər güclənməsində böyük rol oynayıb. İŞİD-in sıralarına qatılan türklər var, ölkənin İŞİD-i silahlandırması ilə bağlı iddialar var. Üstəlik İŞİD-ə qoşulmaq istəyənlərin, o sıradan Azərbaycan vətəndaşlarının oraya Türkiyə üzərindən getməsi üçün şərait yaradılması haqqında faktlar var. AKP Suriya savaşı başlayandan məsələyə çox bəsit bir nöqtədən yanaşdı, dedilər ki, Əsədə qarşı savaşanlar Türkiyənin dostudur. Əsədə qarşı olan radikal terror qruplaşmalarına silah verdilər. Sərhəddə Suriyada vuruşmaq istəyənlərə hərbi təlimlər keçildi. Bütün bunlar o bölgədəki radikal qrupların genişlənməsinə səbəb oldu. Bu hökumətin siyasəti Türkiyəni terrorçularla işbirliyi yapan bir nöqtəyə gətirdi. Ancaq terrorçularla işbirliyi içərisində olmaq günlərin birində o qrupların Türkiyəyə qarşı vuruşmayacağı anlamına gəlmir. Biz bunun ən acı örnəyini Reyhanlıda yaşadıq.

***- İraq türkmənlərinə qarşı yürüdülən siyasəti necə dəyərləndirirsiniz? Ümumiyyətlə sizin fikrinizcə, Türkiyə sərhədlərindəki savaşlardan qaçan insanlara qucaq açmalıdır?***

- Türkmənlərə qarşı edilənlər təbii, heç cür qəbul edilə bilməz. İŞİD türkmənləri öldürür, Davudoğlu deyir ki, bunu İŞİD deyil, digər türkmənlər etdirirlər. Bu məsələni sünni və şiə türkmənlər arasındakı dava kimi təqdim etməyə çalışdılar. Köçkünlərin Türkiyə gəlməsi ilə bağlı humanitar siyasət olmalıdır. Gələnlər hansı şərtlər altında Türkiyəyə yaşaya bilər, harada yaşaya bilər, bunlar çox önəmlidir. Türkiyədə 1,5 milyon Suriya qaçqını var. İraqdakı olaylara görə, yezidilər, türkmənlər Türkiyəyə gəlmək istəyir. Bir qisminin ölkəyə alıblar, bir qismini almayıblar. Burada problem Türkiyənin qapılarını, qucağını sıxıntıda olan insanlara nə qədər açması deyil. Problem bu hökumətin yanlış siyasəti səbəbi ilə qonşu ölkələrdə qarışıqlıq yaranması, köçkünlərin sayının durmadan artmasıdır. Bu qədər çox insanın Türkiyəyə sığınması əlbəttə çox ciddi problemlər yarada bilər. Ac, evsiz, işsiz insanlar düzəni pozur. Xalq hər nə qədər xoşgörülü olursa-olsun, bu köç məsələsi Türkiyədə daxili gərginlik yaradacaq.

**Aygün MURADXANLI, Ankara**

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014



# Kanka, gəl kresloları dəyişək!

**Samir SARI**

## "Ərdoğan sinifkom, Gül isə təmizkom olacaq"

**Türkiyə prezidenti Abdulla Gülün yenidən hakim partiyaya qayıdacağı və başqan seçilərək yenidən baş nazir olacağı barədə xəbərlər çıxandan sonra sosial şəbəkədəki dostlardan biri sırf Anadolu şivəsində böylə yazmışdı: "Sana Medvedyev olmaq yakışmıyordu, sayın Gül".**

Bilənlər bilir, bilməyənlər üçün aydıralım ki, son illərdə regionumuzda belə bir tendensiya əmələ gəlib: iki dostun əvvəlcə biri prezident olur, o biri baş nazir. Sonra bunların vaxtı çatır, guya ki, demokratiyadır, qanunun aliliyi-filan söhbəti var, eyni şəxs iki müddətdən artıq prezident ola bilməz-zad. Onda prezident olan dost öz vəzifəsini baş nazir dostuna verir və özü baş nazir olur. 5 il bu cür işləyirlər. 5 ilin tamamında keçmiş prezident, hazırkı baş nazir öz prezident dostunu çağırıb deyir, qardaş, vaxtdır, prezidentliyimi qaytar özümə, indi də sən baş nazir ol. O da dinməz-söyləməz qaytarır. Beləcə, kresloları dəyişib işləyirlər.

Rusiyada bunu Putin və Medvedyev həyata keçirdi, indi Türkiyədə Ərdoğan və Gül bu plandan yararlanmaq fikrindədir.

Nə demək olar? Yaxşı üsuldur. Artıq sınanıb da.

Hələ onu da yada salaq ki, 2002-ci ildə AKP seçkilərdə qalib gəlib təkbaşına hökumət quranda 58-ci hökumətin başçısı Abdulla Gül olmuşdu. Çünki Ərdoğanın yasağı vardı, hətta qəzetlər də yazmışdı ki, o nəinki deputat, nazir, heç məhəllə muxtarı ola bilməz. Amma partiyası qalib gələndən sonra vəziyyət dəyişdi. Yeni qanun layihəsi hazırladılar, parlamentdə oxunuşlardan keçirdilər, kitabdan kitaba saldılar və AKP-nin qurucusu olan Ərdoğanın siyasətlə məşğul olmaq, harasa seçilmək hüququ tanındı. Sonra Siirt bölgəsində bir nəfər deputatlıqdan istefa verdi, yerinə Ərdoğanın namizədliyi irəli sürüldü, seçildi, türkün sözü, mazbatasını alan kimi, baş nazir Gül media qarşısına çıxıb dedi ki, postun yiyəsi gəldi, mən istefaya çıxıram. Beləcə, Ərdoğanın rəhbərliyi ilə 59-cu hökumət quruldu, Gül də baş nazirin müavini və xarici işlər naziri oldu.

7 il bundan qabaq Gül qabağa getdi, prezident seçildi, Ərdoğan yerində qaldı. Amma qardaş ölkədə prezidentin və baş nazirin səlahiyyətləri elədir ki, baş nazir daha böyük vəzifə sayılır. Bu üzdən kənardan baxanda elə görünürdü ki, cənab Gül Ərdoğanın yanında prezident işləyir.

Budur, onlar yerlərini dəyişirlər. Ərdoğan prezident seçilib və onun gənclik dostu Gül isə baş nazir olmaq istəyir və güman ki, olacaq. Amma bu, o demək deyil ki, bu dəfə də Ərdoğan baş nazir Gülün yanında prezident işləyəcək. Hayır.

Bu dəfə tərsinə olacaq. Ərdoğan sinifkom, Gül isə təmizkom olacaq, Çankayadan verilən tapşırıqları icra edəcək.

Situasiyanı Azərbaycan oxucusunun daha yaxşı anlaması üçün bir ad çəkək: Artur Rasizadə. İstər Gül olsun, istər Bülənt Arınç və ya bir başqası, bu gündən sonra Türkiyədə kim baş nazir təyin olunsa, o bizim Artur müəllimdən fərqlənməyəcək.

Yeri gəlmişkən, Artur müəllimin bioqrafiyasında baş nazirlikdən istefa vermək, bir-iki ay baş nazirin birinci müavini olmaq, sonradan yenə baş nazir olmaq hadisələri var. Zaman belə tələb edirdi. Düzdür, rəsmən belə xəbər yayılmışdı ki, bu, əziz baş nazirimizin səhhəti ilə bağlıdır, amma güman ki, siyasətlə bağlıydı. Hər halda biz rəsmi mövqeyə inanmalıyıq və hesab etməliyik ki, 2003-cü ilin payızında cənab Rasizadə iki ay ərzində baş nazirin birinci müavini vəzifəsində yox, baş nazir postunda çalışsaymış, sağlamlığında ciddi fəsadlar əmələ gələrmiş.

Sonrakı seçkilərdə onun təkrarən xəstələnməsinə ehtiyac olmadı. Hətta bizdə Putin-Medvedyev ssenarisini həyata keçirməyə də zərurət yaranmadı. Birincisi, elə bir etibarlı dost yox idi ki, prezident vəzifəsini verəsən, sonra geri alasan. İkincisi, hamı bunun bir siyasi riyakarlıq olduğunu bilirsə, təzədən dünyanı özünə güldürməyin bir mənası yoxdur, ən yaxşısı, "prezident özüməm, nə qədər ki, canımda can var, özüm olacam" deməkdir. Baxın, heç etiraz edən də yoxdur.

**Xüləs, görək "Putin-Medvedyev" ssenarisinin Türkiyədəki variantı - "Gül-Ərdoğan" senaryosu necə həyata keçiriləcək. Ondan sonra görəcəyik Medvedyev olmaq sayın Gülə yakışırmı, yakışmırmı?**

## Əli Həsənov Soçi görüşünün şok detallarını açıqladı



# Əliyev Sərkisyanın üzünə "faşist" deyib

### Prezidentlərin Putinin yanındakı görüşündə sensasion məqamlar və söz dueli yaşanıb; Ermənilərin prezidentinin Soçidəki görüşə dair açıqlamalar verməsi Azərbaycan iqtidarını hərəkətə keçirdi; "Sarkisyan bizi məcbur edir ki..."

**Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov AzərTAc-a müsahibə verib. PA şöbə müdirinin sensasion məqamlarla dolan müsahibəsində üç prezidentin Soçidəki görüşünə dair mühüm və tarixi detallar açıqlanıb.**

Müsahibədən o da aydın olur ki, PA sözçüsünün bu cür açıqlamalar verməsinə səbəb Ermənistan prezidentinin görüşdəki bəzi detallardan danışmasıdır. "Yeni Müsavat" qəzeti müsahibədəki məqamların əhəmiyyətini nəzərə alaraq, onu manşetdən yayımlayır:

***- Əli müəllim, prezidentlərin Soçi görüşündən sonra Ermənistan prezidenti Serj Sərkisyan görüşdə müzakirə olunan məsələlərlə bağlı bəzi açıqlamalar verib. Bu açıqlamalarda səslənən fikirlərə münasibətinizi öyrənmək istərdik.***

- Təəssüf edirik ki, Serj Sərkisyan artıq neçənci dəfədir ki, qarşılıqlı razılaşmanı pozaraq prezidentlər arasında keçirilən qapalı görüşdə müzakirə olunan məsələlərin bəzi detallarını açıqlayır. Ən acınacaqlı hal isə odur ki, o, tərəflərin həmin görüşdə qaldırdığı məsələləri, ortaya qoyduğu mövqeni təhrif edir, öz subyektiv mülahizələri və Ermənistanın maraqlarına uyğunlaşdıraraq saxtalaşdırır. Əlbəttə, ölkə rəhbəri və prezident olaraq belə şeylər ona qətiyyən başucalığı və şöhrət gətirmir. Bu faktlar açıqlanmalı olsaydı, görüşdən sonra prezidentlər mətbuat konfransı keçirər və bütün məsələləri üz-üzə şərh edərdilər. Görüş bitəndən sonra öz ölkəsinə qayıdaraq, müzakirə edilən məsələləri yenidən öz subyektiv mülahizə və maraqlarını əlavə etməklə, təhrif olunmuş formada yerli ictimaiyyətə çatdırmağı və "yalançı qəhrəman"a çevrilməyi isə yalnız Sərkisyan kimilər edə bilər.

***- Artıq Sərkisyan bunu edib. Odur ki, görüşdə müzakirə olunan bəzi məsələlərə aydınlıq gətirmək və müəyyən detalları dəqiqləşdirməyə ehtiyac duyulur. Bu haqda Azərbaycan ictimaiyyətinə nəyi söyləmək mümkündür?***

- Bir daha təəssüf edirik ki, Sərkisyanın bu hərəkəti bizi də bu qapalı görüşdə müzakirə olunan bəzi məsələlər haqqında açıqlama verməyə məcbur edir. Bəli, Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə keçirilən görüşdə Azərbaycan prezidenti İlham Əliyev işğal olunmuş ərazilərdə erməni dəstələri tərəfindən ələ keçirilmiş kəlbəcərli iki girovun məsələsini qaldırıb. Məlum olduğu kimi, girovlardan biri Rusiya vətəndaşıdır və onun ailəsinin Rusiya prezidentinə müraciəti yayılıb. Azərbaycan prezidenti görüşdə həmin müraciəti prezident Vladimir Putinə çatdırıb və görüş əsnasında girovların azad edilməsi məsələsini qaldırıb. Prezident İlham Əliyevin fikrincə, ermənilər bu iki kəlbəcərlini heç bir əsas olmadan "təhlükəli diversant"lar kimi qələmə verib və onların ətrafında KİV-də eybəcər şou yaradıblar. Halbuki onların ailə üzvlərinin verdiyi məlumata görə, bu iki şəxs neçə illərdir ki, öz vətəndaşlıq hüquqlarından istifadə edərək ermənilərin işğalı altında olan doğma kəndlərinə - valideynlərinin qəbrini ziyarət etməyə gedirlərmiş. Onlardan birinin Rusiya vətəndaşı olduğunu nəzərə alaraq, prezident İlham Əliyevin prezident Vladimir Putindən bu məsələyə münasibət bildirməsini istəməsi isə tam təbiidir və söz yox ki, bu, dinc sakinlərin qeyd-şərtsiz azad olunması məqsədi daşıyır.

Bundan başqa, Azərbaycan prezidenti üçtərəfli görüşdə işğal bölgəsində və qoşunların təmas xəttində erməni silahlı qüvvələri tərəfindən öldürülmüş əsgərlərin və dinc sakinlərin meyitlərinin müharibə qanunlarına uyğun olaraq, qeyd-şərtsiz geri qaytarılmasını tələb edib. Hətta görüşdə prezident İlham Əliyev üzünü Sərkisyana tutaraq belə bir ifadə də işlədib: "İşğalçı erməni əsgərlərinin cəbhə bölgəsində ələ keçirdiyi girovlar və meyitlərin üzərində törətdikləri vəhşi əməlləri heç Hitlerin zamanında faşistlər də etməyib. Meyitə belə hörmətsizlik etmək olmaz, bu, insana yaraşan əməl deyil". Prezident, həmçinin meyitlərin dərhal öz ailələrinə təhvil verilməsini tələb edib.

Serj Sərkisyan əlbəttə, Azərbaycan prezidentinin bu mühakiməsi qarşısında ciddi bir arqument tapa bilmədiyindən 2010-cu ilin iyununda cəbhə bölgəsində minalanmış sahəni cəsarətlə keçərək düşməni onun öz silahı ilə ağır itkilərə məruz qoyan və qeyri-bərabər döyüşdə qəhrəmanlıqla həlak olan Mübariz İbrahimovun cəsədinin geri qaytarılması ətrafında Azərbaycanın apardığı təbliğata toxunub və azərbaycanlıları "Mübariz İbrahimovu qəhrəman kimi təqdim edərək ermənilərə göz dağı verməkdə" günahlandırıb. Prezident İlham Əliyev isə cavabında Serj Sərkisyana xatırladıb: "Müharibənin öz qanunları var. Mübariz İbrahimovu biz qəhrəman kimi qələmə verməmişik. O, təkbaşına erməni əsgərlərinin qoruduğu səngəri dağıdaraq, ondan artıq işğalçı əsgəri öldürüb və özü də həyatını qəhrəmancasına qurban verib. Müharibə qanunlarına görə, tərəflər qəhrəmanlara hörmətlə yanaşmalıdır. Mübariz İbrahimov əsl qəhrəmanlıq nümunəsi göstərib və haqlı olaraq da Milli Qəhrəman adını qazanıb". Prezident İlham Əliyev Serj Sərkisyandan qəhrəmanlara məhz qəhrəman kimi yanaşmağı tələb edib.

***- Əli müəllim, Serj Sərkisyan öz çıxışında, eyni zamanda, ermənilərin son diversiya hərəkətləri vaxtı Azərbaycanın daha çox itki verdiyini, ermənilərinsə "öz gücünü" nümayiş etdirdiyini bildirib və erməni xalqını sanki bu "faktla" sakitləşdirməyə cəhd göstərib. Bununla bağlı nə deyə bilərsiniz?***

- Sərkisyan əlbəttə ki, bu günlərdə baş verən təxribat-diversiya nəticəsində Ermənistanın işğalçı ordusunun itkilərini bilərəkdən gizlətməyə çalışır və bu faktı ört-basdır etmək istəyir. Halbuki bütün daxili və xarici mənbələrin məlumatları son hadisələrdə Ermənistanın 50-yə yaxın itki verdiyini təsdiqləyir. İtkiləri gizlətmək Ermənistanın hərbi-siyasi dairələrinə heç zaman müyəssər olmayacaq. Məsləhətdir ki, Serj Sərkisyan Cənubi Qafqazda gələcək sülhə birbaşa zərbə vuran bu kimi təxribatçı halları davam etdirməkdənsə, erməni xalqını müharibənin girovunda saxlamaqdansa, son bir ildə ölkəsini kütləvi şəkildə tərk edən, iş və çörək axtarışında bütün dünyaya səpələnmiş həmvətənlərinin qeydinə qalsa daha yaxşı olar.

❑ **"Yeni Müsavat"**

> **Prezident Əliyev Sərkisyana deyib:**
> "Mübariz İbrahimov... təkbaşına erməni əsgərlərinin qoruduğu səngəri dağıdaraq, ondan artıq işğalçı əsgəri öldürüb və özü də həyatını qəhrəmancasına qurban verib. Müharibə qanunlarına görə, tərəflər qəhrəmanlara hörmətlə yanaşmalıdır. Mübariz İbrahimov əsl qəhrəmanlıq nümunəsi göstərib və haqlı olaraq da Milli Qəhrəman adını qazanıb"

## Ermənilərin ölüm siyahısındakı azərbaycanlılar...

### Onların arasında İsa Qəmbər, Sərdar Cəlaloğlu, İsgəndər Həmidov və Flora Kərimova da var; Akif Nağı onlara mühafizəçi ayrılmasına ehtiyac görür...

**"Xocalı işğal olunan zaman mən də cəbhəyə getmək üçün könüllü müraciət etmişdim. Ermənilər orda bizimkilərin siyahısını tuturdular ki, ilk olaraq kimləri öldürsünlər. Həmin siyahıda mənim də adım vardı. Bununla fəxr edirdim".**

Bu sözləri axar.az-a müsahibəsində xalq artisti Flora Kərimova deyib. Sənətçi söyləyib ki, atılan addımlarda pozitivə göz yumub, hər şeyi pisləmək vərdişindən can qurtarmalıyıq: "Müxalifətin və iqtidarın bir vətəni var. Heç birimizin Azərbaycanımızı maraqlara bölməyə haqqımız, ixtiyarımız yoxdur".

Ermənilərin ölümü siyahısında olan azərbaycanlı təkcə Flora Kərimova deyil ki. Bu sırada dünya şöhrətli mərhum alim Ziya Bünyadov, Müsavat başqanı İsa Qəmbər, ADP sədri Sərdar Cəlaloğlu, sabiq daxili işlər naziri İsgəndər Həmidov, zabitimiz Ramil Səfərov da var.

Eyni zamanda ASALA terror təşkilatından Azərbaycanın Macarıstanda və bir sıra digər ölkələrdəki səfirliklərinə daxil olmuş məktubun mətnində diplomatlarımız - Rəşad Səfərov, Eldar Əliyev, Anar İmanov, Lalə Səfərova, Hüseyn Cəfərov, Vüqar Əliyev və Gülnarə Məmmədovanın adı yer alıb.

Ümumiyyətlə, uzun illərdir dünyaya kök atmış erməni terror təşkilatları Azərbaycan Xalq Cümhuriyyətinin qurucularına, ötən əsrin 70-80-ci illərində isə türk diplomatlarına qarşı amansız terror aktları həyata keçiriblər. Həmçinin, 1994-cü ilin martında Bakı metrosunda ermənilərin törətdiyi terror nəticəsində böyük faciələr yaşanıb.

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı** hesab edir ki, dövlət səviyyəsində bu siyahıda olan azərbaycanlıların mühafizəsi təşkil olunmalıdır. QAT sədri bu şəxslərin diqqət mərkəzində olmasını vacib sayır:

"Dünya nümunəsində belə hallar var. Bu adamlar təhlükə altındadır və tutduqları vəzifədən asılı olmayaraq onların təhlükəsizliyi təmin etməlidir. Bunun üçün dövlət proqramı olmalı, mühafizəçilər ayrılmalıdır. Bu, elə böyük maliyyə də tələb etmir".

**A.Nağı özünün mühafizəyə ehtiyacı olmadığını bildirdi:** "Ermənilərin öz qara siyahısı var və açıqlanmayan həmin siyahını kimsə bilmir. Ola bilsin ki, bizim də adımız orada keçir. Ancaq bu yola çıxmışıqsa çəkinməyə ehtiyac yoxdur. Sadəcə, işimizi ehtiyatlı tutmalıyıq. Hər şeyi göz altına almışıq və nədənsə özümüzü sığortalamağa lüzum yoxdur".

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014



# Savaş riskini sıfırlamağın ən optimal yolu

# Qarabağı 10 milyarda alaqmı?

## Dağıdıcı müharibədənsə, konfliktin maliyyə resursları hesabına həlli bütün tərəfləri qane edərdi, əgər Rusiya və Ermənistan rəhbərlikləri, nəhayət, rasional düşüncəyə köklənsəydi...

**Prezidentlərin Soçi görüşü bitsə də, görüşlə bağlı müzakirələr, fikir dartışmaları davam edir. Bunun bir səbəbi ayın əvvəlində təmas xəttində yaşanan "3 günlük müharibə" ilə bağlıdırsa, ikinci mühüm amil Qarabağ ixtilafının həllində iki qlobal gücün - Qərb və Rusiyanın maraqlarının heç vaxt olmadığı qədər toqquşmasıdır.**

Təsadüfi deyil ki, bəzi politoloqlar 10 avqust Soçi görüşünün reallaşmasını Qərb strateqlərinin uğursuzluğu kimi dəyərləndiriblər. Problemin həllinə cavabdeh olan vasitəçi dövlətlər arasında ziddiyyətlərin kəskinləşməsi fonunda münaqişənin optimal həll yolunu tapmaq isə bir az da qəlizləşmiş kimi görünür.

**Bu arada Rusiya saytlarından birinin sensasiyalı Qarabağ iddiası diqqət çəkib.** Xəbər verildiyi kimi, portal guya prezident İlham Əliyevin ətrafına yaxın məlumatlı mənbədən aldığı informasiyaya əsaslanaraq belə bir məlumat yayıb ki, Azərbaycan Dağlıq Qarabağı geri almaq üçün Ermənistana 5 milyard dollar təklif edib. Söhbət əlbəttə ki, əlbəəl veriləcək nağd pul kütləsindən getmir (bu, texniki cəhətdən mümkün də deyil), tranşdan gedir.

Məlumatda bildirilir ki, bu məbləğ Ermənistanın bütün xarici borcunu ödəməyə bəs edər. "Pul köçürülməsi isə birbaşa iki ölkənin Mərkəzi bankları arasında deyil, beynəlxalq maliyyə strukturları, məsələn, Beynəlxalq Valyuta Fondu (BVF) üzərindən həyata keçirmək nəzərdə tutulur" - xəbərdə belə deyilir. O da qeyd edilir ki, Bakı BVF-nin bu köçürmə üçün xidmət haqlarını da ödəməyə hazırdır.

Bunun əvəzində Ermənistan 2015-ci ilin sonuna qədər Qarabağdan bütün hərbi birləşmələrini çıxarmalı və əraziləri 2019-cu ilədək orada qalacaq ATƏT, yaxud Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT - Rusiyanın yaratdığı hərbi-siyasi qurum - S.Ş.) aid sülhməramlıların nəzarətinə verməlidir. Həmin dövrdə Azərbaycan Dağlıq Qarabağda paritet əsasda yerli hakimiyyət orqanları yaratmalı, Konstitusiyada dəyişiklik edib erməni dilinə ikinci regional dil statusu verməli, regionun bütün təhsil müəssisələrində erməni dilinin mütləq tədris edilməsini qanuniləşdirməlidir".

**Ermənistan tərəfi isə öz vətəndaşlarının 180 təqvim günü ərzində Dağlıq Qarabağa sərbəst-gedib gələ bilməsini istəyir.** "Ən başlıcası budur ki, İrəvan kompensasiyanın məbləğinə razı deyil. Sərkisyanın emissarları bildirirlər ki, ancaq 10 milyard dollar məbləğində danışıqlara razıdırlar və pulun 3 il ərzində alınmasına razılaşa bilərlər. Yəni ildə 3 milyard dollar. Bu isə Ermənistanın illik büdcəsinə bərabərdir" - deyə sayt vurğulayıb.

**Rusiya elektron KİV-nin iddiasına görə, bu məsələ ilə bağlı danışıqlar Cenevrədə aparılır.** Yəni belə çıxır, moderatorluq Qərbə məxsusdur və problemin həllində Avropa heç də boş dayanmayıb. Məlumatın Soçi görüşündən dərhal sonra yayılması da diqqət çəkir və istisna deyil ki, həmin görüşün təbliğati effektini azaltmağa hesablanıb. Yəni göstərmək istəyirlər ki, məsələdə həlledici söz sahibliyi, moderatorluq illərdir konflikti həll etməyə real təşəbbüs göstərməyən Moskvaya yox, hər halda, Qərbə məxsusdur.

**Yeri gəlmişkən, Qarabağ ixtilafının sırf maliyyə amili hesabına yoluna qoyulması ideyası təzə deyil.** Bu barədə, daha doğrusu, mümkün bazarlıq barədə "Yeni Müsavat" olaraq ilk dəfə yazmış, gerçəyə yaxın ehtimallar səsləndirmişik. Məsələn, qeyd eləmişik ki, maliyyə imkanları böyük olan Azərbaycan tərəfi pərdəarxası və siyasi kuluarlarda bu yöndə təkliflərini işğalçı tərəfə vaxtaşırı çatdırıb, o sırada ədalətli sülhə razı olacağı təqdirdə böyük regional enerji və kommunikasiya layihələrinə Ermənistanın qoşulmasını təklif edib, sülh sazişindən sonra münaqişə bölgəsinin iqtisadiyyatının, infrastruktur və kommunikasiyalarının bərpası üçün regiona bir neçə milyard dollar maliyyə yatıra biləcəyini bildirib. Cəmi 150 min əhalisi olan balaca bölgə üçün bu, sözsüz ki, çox böyük məbləğdir.

Onu da qeyd eləmişik ki, Bakının bu qəbildən maddi təzminat təklifləri daha çox iqtisadi qurum olan Avropa Birliyində (AB) də maraqla qarşılanıb. Yeri gəlmişkən, AB-nin özü də Ermənistanı sülhə həvəsləndirmək, müharibə variantını gündəmdən çıxarmaqdaan ötrü bənzər təşəbbüslərlə çıxış edərək, münaqişə sonrası bölgənin bərpası və əhalinin oturuşması üçün bir neçə milyard (bəzi məlumatlara görə, 10 milyard) ayıracağını təklif edib.

Əfsus ki, acı-yalavac Ermənistandan belə əlverişli təkliflərə isti münasibət olmayıb. Ən yaxşı halda işğalçı tərəf susqunluq nümayiş etdirib. Bunun baş səbəbi heç şübhəsiz, Ermənistanın məsələdə söz sahibi olmaması, Rusiyadan asılı durumda olmasıdır. Bakı yəqin ki, bu amili də ciddiyə alır. Məsələ ondadır ki, Moskvanın razı salınması üçün də Azərbaycanın çalışdığı deyilir. Bu dəqiqə isə iqtisadi-maliyyə sanksiyalarından əziyyət çəkən Rusiyaya sərmayələr hava-su kimi gərəkdir. Elə Rusiyaya qarşı sanksiyaların altını çəkməli olacaq Ermənistana da.

**Bütün hallarda belə görünür, Qarabağ məsələsi ətrafında vasitəçi güclər də içində olmaqla böyük bir zondaj prosesi gedir. Olsun. Dağıdıcı müharibədən, ölümlərdənsə konfliktin iqtisadi-maliyyə resursları hesabına həlli qat-qat məqbuldur və hamını qane edərdi. Keşkə, Moskva və İrəvan gec də olsa, nəhayət, realist mövqeyə köklənəydi...**

❑ Siyasət şöbəsi

# "3-cü Dünya müharibəsi çağırışları Putinin Qərbi şantaj cəhdidir"



Vəfa Quluzadə

## Vəfa Quluzadə: "Qərbdə indi çox gözəl bilirlər ki, bu dəqiqə Rusiya müharibə aparmaq fikrində deyil"

**Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski Qərbi 3-cü Dünya müharibəsi ilə hədələyib. "Rossiya 24" telekanalına müsahibə verən Jirinovski deyib ki, Putin 3-cü Dünya müharibəsinin başladır: "Brüsseldə NATO, ABŞ-da Barak Obama nə plan hazırlayırsa hazırlasın, bunların heç bir mənası yoxdur. Qərarları yalnız bir adam qəbul edir. O da Rusiya prezidenti Vladimir Putindir. 1-ci Dünya müharibəsinin başlanması haqqında qərarı II Nikolay vermişdi, 2-ci Dünya müharibəsini də Stalin. İndi isə 3-cü Dünya müharibəsi ilə bağlı qərarları Putin verir və əminəm ki, qərar artıq verilib".**

ANS-in məlumatına görə, Jirinovski deyib ki, Rusiya üçün təhlükə qərbi Avropa ölkələrindən gəlir, çünki bu ölkələrin ərazisində NATO-nun hərbi bazaları yerləşdirilib. Buradan Rusiya ərazisinə raketlər buraxıla bilər. Rusiya liberallarının lideri Putinin qabaqlayıcı addımlar atacağını iddia edib.

Qeyd edək ki, Jirinovskinin bir çox açıqlamaları səbəbindən qeyri-ciddi imici formalaşsa da, hazırda Rusiya siyasi elitasına yaxın olan bu siyasətçi bir qayda olaraq Putinin birbaşa deyə bilmədiyi fikirləri söyləməsi ilə gündəmə gəlir. Bu mənada onun Qərbi 3-cü Dünya savaşı ilə hədələməsi də məhz özünün deyil, Kremlin fikirləri kimi qəbul olunur. Bəs, indiki məqamda Qərb-Rusiya hərbi münaqişəsi və ya Jirinovskinin dediyi kimi, 3-cü Dünya savaşı başlaması ehtimalı nə qədər realdır?

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** "Yeni Müsavat"a açıqlamasında Putinin 3-cü Dünya savaşı başlatmaq iqtidarında olmadığını, sadəcə Jirinovski vasitəsilə Qərbi şantaj etməyə çalışdığını bildirdi: "Putin şantajla məşğul olur. Jirinovski də onun tapşırığı ilə istəyir Qərbi qorxutsun ki, Ukrayna məsələsində məndən əl çəkin, yoxsa mən heç nəyə baxmadan 3-cü Dünya müharibəsinə gedə bilərəm. Amma Rusiya heç vaxt indiki şəraitdə 3-cü Dünya savaşına gedə bilməz. Səbəb də ondan ibarətdir ki, Putin NATO ilə müqayisədə zəif tərəfdir, güclü deyil. Müharibəni başlayan tərəf heç zaman bunu dilinə gətirməz.

Hitler Rusiyaya hücum etməzdən əvvəl dostluq müqaviləsi bağladı, Stalinin sağlığına tost qaldırdı və bununla da onun diqqətini yatırtmağa çalışdı ki, zərbəni gözlənilmədən vursun. İndi Putin əgər müharibə etmək istəyirsə, gözlənilmədən zərbəni vurar. Amma əgər deyirsə ki, Ukraynanı verin, yoxsa vuraram, bu artıq şantajdır".

**V.Quluzadə deyir ki, Putinin bu cür şantajı çətin ki, işə yaraya. Sabiq dövlət müşavirinin fikrincə, indiki məqamda Qərb çox güclüdür və Rusiyanın müharibəyə getməyəcəyini bilir. Eyni zamanda V.Quluzadəyə görə,** Ukraynaya qoşun yeridib, Ukraynaya qarşı müharibə edə bilmir. NATO-ya qarşı necə müharibə edəcək?

Putinin ətrafında ağıllı adamlar var. Onlar situasiyanı, imkanlarını gözəl bilirlər və gözəl anlayırlar ki, müharibə etmək mümkün deyil. Ona görə də mən Jirinovskinin bəyanatlarını Qərbə şantaj kimi qiymətləndirirəm.

Qərb çoxdan, hələ sovet dövründən Rusiyanı öyrənir. Sovet İttifaqı çökəndən sonra rus

> **"Sovet İttifaqı çökəndən sonra rus xüsusi xidmət orqanları əməkdaşlarının az qala yarısı Qərbə qaçıb və onların hamısı Qərbə məsləhət verirlər"**

**Rusiya hakimiyyəti özü də gözəl başa düşür ki, 3-cü Dünya müharibəsi elə də real deyil:** "NATO-da Rusiyadan qat-qat güclü olduğu üçün heç zaman bu şantaja getməyəcək. Nə edir etsin, cavabını alacaq. Ukraynanı Amerika da, NATO-da güclü şəkildə dəstəkləyir və dəstəkləməkdə davam edəcək. Putin də Ukraynada artıq məğlub olub, bu, axırıncı addımlardır. Putin

xüsusi xidmət orqanları əməkdaşlarının az qala yarısı Qərbə qaçıb. Generalları, elə başda Kalugin olmaqla, onların hamısı Qərbə məsləhət verirlər. Rusiyanın gerçəkliklərinin hamısını açıqlayıblar. Rusiyanın zəif yerləri nədir, haradadır, hamısını deyiblər. Əgər onlar bəyan etsələr ki, Rusiya xüsusi xidmət orqanlarından nə qədər adam qaçıb, bu rəqəm adamı dəhşətə gətirər. Qaçanlardan başqa sözsüz ki, Qərbin Rusiyada güclü kəşfiyyat şəbəkəsi var. Bu səbəbdən də Qərb Rusiyanın cikini-bikini bilir. Nə zaman bilsələr ki, həqiqətən Putin müharibəyə hazırlaşır, o zaman zərbəni vuracaqlar. Qərbdə indi çox gözəl bilirlər ki, bu dəqiqə Rusiya müharibə aparmaq fikrində deyil. Onlar yaxşı bilirlər ki, bu dəqiqə Rusiya Ukraynadakı bataqlıqdan necə çıxmağın yollarını axtarır. Bu şantaj və təhdidlər də yalnız buna yönəlib".

**V.Quluzadə deyir ki, müharibə ritorikası Rusiyanın çıxılmaz vəziyyətdə olduğuna dəlalət edir:** "Çünki Putin Rusiyanı elə bir dalana salıb ki, çıxış yolu da görünmür. Hər bir böhrandan çıxış yolu danışıqlar, barışıqdır. Ancaq indi Putin Krımı işğal edib, Ukraynanın cənub-şərqində müharibə aparır, ora qanunsuz olaraq silah və sursat, zirehli texnika, xüsusi təcrübəli döyüşçülər göndərib. Üstəlik indi də Qərbə müharibə elan etməklə hədələyir, Qərbi lənətləyir, hər şeydə günahkar kimi onları görür. Ukrayna xalqı Avropa İttifaqına getmək istəyir, o isə Qərbi suçlayır ki, bu sizə görədir. Putin Qərbi suçlayır ki, siz imkan verin, mən gəlim bu xalqın başını əzim. Bilirsiniz, bu cür siyasət heç zaman qalib gələ bilməz, onlar məğlubiyyətə düçar olurlar. Ona görə də çıxılmaz vəziyyətdə müharibə-müharibə deyirlər ki, bəlkə qorxudalar. Amma Qərb qorxmayacaq".

**Sabiq dövlət müşaviri deyir ki, Putin üçün yeganə çıxış yolu bir zamanlar Yeltsinin etdiyi kimi çıxıb xalqdan üzr istəyib, istefa verməkdir. Ancaq politoloq deyir ki, bu da artıq gecdir:** "Çıxsın televiziya qarşısına, desin ki, ey "rosiyaniya", yəni ey Rusiyanın xalqları, məni bağışlayın. Yeltsin üzr istədi, səbəbi də o idi ki, xalqını qarət etmişdi. Xalqının, yəni sovetlərdən qalma bütün əmlakı, təsərrüfatı, zavod və fabrikləri özü və dostları darmadağın etdiklərinə görə Yeltsin üzr istədi. İndi Putin də ölkəni çıxılmaz vəziyyətə qoyduğuna, qardaş xalqa təcavüz etdiyinə, qardaş ölkəni Rusiyaya düşmən etdiyinə görə üzr istəsə və desə ki, başqası gəlib mənim səhvlərimi düzlətsin, bu yeganə çıxış yoludur. Lakin, o bunu bacaracaqmı, bunu demək çətin məsələdir. Çünki elə bataqlıqlar var ki, ordan çıxmaq mümkün olmur. Bataqlıq adamı sorur, öz içinə çəkir".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014



# Göyçəni unutmadıq

Zamin HACI
zaminhaci@mail.ru

**Vətənpərvər insanlarımızın "Ayfon" telefonu işlətməsi düzgün deyil, çünki bunu qayıran Stiv Cobsun analığı erməni qadın olmuşdur. O cümlədən, biz "Aypəd", "Aypod" və sairə bu tipli qurğulara da yox deməyi bacarmalıyıq. Müharibə qanunlarına görə düşmən cavab atəşi ilə susdurulmalıdır.**

Yeri gəlmişkən, bu Stiv Cobsun "Canon" şirkətindən necə ideyalar çırpışdırması haqda oxudum, heyrətə gəldim. Rəhmətlik oğurlaya-oğurlaya gedirmiş, əsl zəmanə adamı imiş. Bunun özü də onun erməni südü əmməsinə görədir, istərdim AzTV növbəti reportajlarında bu mövzuya toxunsun. Hətta təsəvvür edin, bu haramzada (düzdür ölüb, ancaq ölüyə də haramzada düşür) öz şirkətinin reklamlarını da rəqib İBM firmasından oğurlayırmış. İBM-in reklamı "Think!" ("Düşün!") olan vaxt Stiv kirvə öz reklam şüarını belə yazdırıb "Think different!" ("Fərqli düşün!"). Gör nə qədər oğru bir adam olmuşdur. Deyirəm nə yaxşı dolma bişirməyə, mahnı oxumağa başlamayıb, yoxsa bizdən də çırpışdırıb "iDolma", "iSarı gəlin" buraxardı.

Bunlar hamısı vacib şeylərdir, həmişə gərək düşünək, torpaqlarımızı əldən verməyək, sonra gedib hökumət binalarının qabağında özümüzü yandırmayaq. Şair demişkən, sən yanmasan, mən yanmasam, necə çıxar canımız?! Məsələn, evləri əllərindən zorla alınan sumqayıtlı ər-arvad özlərini Prezident Administrasiyası qabağında yandırandan sonra respublikamız daha da aydınlığa çıxdı.

Dünən bir maşın da gördüm, qiyməti yalan olmasın, 60 min manata yaxın idi və qabağında şüşənin altından yekə bir plankart vurulmuşdu: "Göyçəni unutma!". Az qala yolu görməyə mane olacaq qədər yekə şüar idi. Bəlkə məlun ermənilər Kəlbəcərin üstündən durbinlə baxsalar bu yazını görərdilər. Əgər o adamdan soruşsan Bakıda nə baş verir, deyəcək siyasətə qarışmıram. Bakını unudandan sonra Göyçəni sən necə yadında saxlayacaqsan? Çətin işdir. Ancaq mümkündür. Ona qalsa bir çox məmur uşaqlarımız Parisdə, Londonda yaşayırlar, ancaq ürəkləri daim Abşeronla, Qəbələ ilə döyünür - buraları da hündür hasarla bağlayıb özlərinə saxlayırlar.

Nədən danışırdıq? Əşşi, əslində heç nədən danışmırdıq. Hamısı boş söhbətlərdir. Hamısı oyundur. Bizim evimizi Qorbaçovla Reyqan gəmidə görüşəndə yıxıb. O vaxt Rəşid Behbudov qonşu kayutda bankanı divara dirəyib söhbətə qulaq asıbmış, ona görə böyük sənətkarımızı da qətlə yetiriblər.

Ermənilərdən çoxlu əsgər öldürmüşük, bunu xalqımız artıq bilir. Ancaq erməni xalqı öz əsgərlərinin ölümündən hələ bixəbərdir, çünki namərd sərkisyanlar (ya da sarqsyanlar - bax: əvvəlki yazımıza) meyitləri gizlədirlər. Burada bir namərd sual ortaya çıxır ki, bəs biz niyə öz itkilərimizi gizlətmirik, qoy elə Zakir Həsənov da əsgərimiz vurulanda desin yalandır, heç kim ölməyib. Mümkün deyilmi?

Əlbəttə, mümkün deyil. Səbəb isə bizdəki aşkarlıq, demokratiyadır. Azərbaycanda hökumət hər şeyi xalqa bildirir, Ermənistanda isə hökumət hər şeyi xalqdan gizli saxlayır. Məsələn, bu yaxınlarda İrəvanda (gərək biz bunu Stiv müəllimin xətrinə indən belə iRəvan yazaq) küçədə sorğu keçirdiblər, məlum olub ki, camaat 2-ci dünya savaşında Sovet ordusunun qələbəsindən xəbərsizdir. Erməni xalqı hətta vurma cədvəlindən xəbərsizdir! Onlar elə zənn edirlər ki, iki dəfə iki yeddi eləyir. Belə xalqı aldatmağa, başına corab hörüb səngərdə qırmağa, sərvətini çırpışdırıb ofşor zonalara daşımağa nə var!

**Yazını el məsəlimizlə bitirirəm: "Hava yaman bürküdür, Ermənilər tülküdür!"**

# İqbal Ağazadə: "Rusiya konflikti həll edən tərəf deyil"

## Millət vəkili iddia edir ki, yaxın beş ildə Ermənistan-Azərbaycan cəbhəsində heç bir köklü dəyişiklik olmayacaq



**Ölkədə və regionda baş verən son olaylarla bağlı "Yeni Müsavat"ın suallarını cavablandırmaq üçün "Ümid" Partiyasının sədri, Milli Məclisin deputatı İqbal Ağazadəni redaksiyamıza dəvət etdik. İ.Ağazadə ilə müsahibədə qəzetimizin baş redaktoru Rauf Arifoğlu və siyasi şərhçimiz Azər Rəşidoğlu iştirak edib. İlk sualımız:**

***- Sizin baxışınızla və sizdəki məlumatlara görə nə baş verdi Soçidə?***

- Soçi görüşündən bir qədər əvvələ qayıtmaq istəyirəm. Soçi görüşündən əvvəl Ermənistan-Azərbaycan cəbhəsində olduqca kəskin bir savaşın başlanmasının anonsu və həyəcanlı xəbərlərin gəlməsi var idi. Nəticə Soçi görüşü ilə tamamlandı. Hesab edirəm ki, Rusiya Ukrayna hadisələrindən sonra, Avrasiya İttifaqı ətrafında baş verən hadisələrdə dominant rolunu daha yaxşı və qabarıq göstərmək üçün Ermənistan-Azərbaycan konfliktini yeni mərhələyə, yeni müstəviyə daşıdı və tərəfləri dialoqa çağırmaqla dünya ictimaiyyətinə, beynəlxalq güclərə əzələ nümayiş etdirdi. Hansılar ki, Cənubi Qafqazla çox bağlıdırlar, ilgilidirlər, çox maraqlanırlar və Azərbaycanın da Avrasiya siyasi coğrafiyasında olmamasında maraqlıdırlar. Buna görə də bu konflikti Rusiya bir qədər alovlandırdı, Ermənistanın əli ilə cəbhə bölgəsində atəşkəs rejimini bir qədər də pozdu, Azərbaycan tərəfi itkilər verdi. Və nəticədə bu gərginliyi aradan qaldırmaq üçün Putin vasitəçi rolunda və qismən də qalib rolunda çıxış etmək fürsəti qazandı. Ritorikalara diqqət etsək, Soçi görüşünə qədər Azərbaycanın ritorikası daha üstün, tam savaş ritorikası idi. Soçi görüşündən sonra üstün ritorika Ermənistana keçdi. Hətta Sərkisyanın "üç yüz kilometrlik məsafədə çiçəklənən Azərbaycanın istənilən şəhərini darmadağın edərik", - kimi bəyanatı da Rusiyanın hegemon rolda olduğunu bir daha göstərir.

***- Bəlkə o bəyanatın arxasında Sərkisyanın boynuna qoyulmuş güzəşt var? O, manevr edir, ictimai rəyi yayındırır, qınaqdan qaçır...***

- Hesab edirəm ki, Rusiya bu gün konflikti həll edən tərəf deyil, bu gün atəşkəsi təmin edə biləcək tərəfdir. Bu gün Cənubi Qafqazda sülhün gəlməsi üçün təminat rolunu tərəflərin razılığı həll edə bilər. Hətta ATƏT-in Minsk Qrupu belə təklif etdiyi variantlarla tərəfləri razılığa gətirə bilmir. Çünki ortada Rusiya faktoru var və hər zaman demişəm, burada kilid nöqtə Azərbaycan deyil, Ermənistandır. Biz Rusiyanın yanında olsaq, Ermənistan Qərbin yanında olacaq, biz Qərbin yanında olsaq, Rusiya Ermənistanın yanında olacaq və nəticə etibarı ilə konflikt həll olunmayacaq. Haradan prosesə baxırsan, bax. Bu gün Rusiya regiondan çıxmayana qədər konflikt həll olunmayacaq. Və Rusiyanın da regiondan hələlik çıxmaq niyyəti yoxdur. Buna görə də düşünmürəm ki, Ermənistan-Azərbaycan cəbhəsində istər Soçidə olan, hətta sabah başqa bir şəhərdə görüşlər fundamental qaydada nəyisə dəyişə bilsin. Heç nəyi dəyişməyəcək, heç bir faktor da yaxın beş ildə Ermənistan-Azərbaycan cəbhəsində nəyisə dəyişməyəcək; bu müddətdə heç bir dəyişiklik gözlənilmir. Çünki regionda baş verən hadisələr bu gün Ermənistan - Azərbaycan cəbhəsində yeni müstəvinin açılması, yeni münasibətlər sisteminin yaradılması üçün hazır deyil. Düşünürəm ki, bu məsələdə sadəcə Rusiyanın maraqları və Rusiyanın regiondan qazanmaq istədiyi, dünyaya nümayiş etdirmək istədiyi, o cümlədən region dövlətlərinə nümayiş etdirmək istədiyi üstünlüklər var.

***- Yəni sizin fikrinizcə, Azərbaycan tərəfi getməməli idi Soçiyə?***

- Mən "Azərbaycan tərəfi getməməli idi" kimi bir ifadəni işlətmək istəmirəm. Azərbaycanın gücü o səviyyədə deyil ki, konflikti yaradan və konflikti bu mərhələyə qədər gətirən Rusiyanın çağırışlarına birmənalı olaraq mənfi cavab versin. Bunun acı nəticələri Cənubi Qafqazda Gürcüstanla baş verib. Azərbaycan tərəfi də manevr edir, hələlik mövqelərini, ən azı mövcud status-kvonun qorunması baxımından, saxlamağa çalışır. Və ona görə də bəzi məqamlarda Rusiyanın çağırışlarına da cavab verir. Azərbaycan tərəfi gedir, danışır; itirəcəyini itirib artıq Azərbaycan tərəfi. Bundan sonra qazanmaq mərhələsidir, itirəcəyi də bir şey yoxdur. Ona görə Rusiya ilə də danışır. Bu, Avrasiya İttifaqının genişlənməsinə və Azərbaycanın da Avrasiya İttifaqına daxil olmasına gətirib çıxara bilərmi? - bu barədə birmənalı surətdə deyirəm ki, yox, çünki...



### "Azərbaycan Rusiyanın yanında olsaydı, tutacağı fiqurlar Qərb yönümlü olmazdı"

***- Amma müəyyən əks iddialar var ki, Azərbaycan Avropa siyasi məkanını tərk edir, Rusiya siyasi məkanına daxil olmaq istəyir, buna vadardır... Bu səbəbdən də Azərbaycan daxilində Avropaya bağlı olan bütün qurumları, təşkilatları, fərdləri, - hər kəsi neytrallaşdırır iqtidar.***

- 1992-93-cü illərdə Azərbaycan siyasəti Avropa və Qərbyönümlü bir siyasət idi. 1993-cü ildən mərhum Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan siyasətinin kursu dəyişmiş kimi göründü. Azərbaycan MDB-yə daxil oldu, Rusiya ilə müqavilələri yenilədi, hətta böyük neft kontraktında Rusiyaya on faizlik güzəşt payı verdi və sair. Əvvəlki hakimiyyətdən daha çox Rusiyanın yanında görünmüş kimi oldu. Və onda nə baş verdi? O zaman Rusiya ilə bağlı olan bütün siyasətçilər həbs olundu. Rəhim Qazıyevdən tutmuş Surət Hüseynova, eks-prezident Ayaz Mütəllibovun tərəfdarlarına və sair. Əslində, əgər Azərbaycan Rusiyanın yanına keçmiş olsaydı bu gün, tutacağı siyasətçilər Qərbyönümlülər olmazdı, Rusiyanın yanında olanları tutardı.

***- Məsələn, kim var ki beləsi?***

- Adlar çəkmək istəmirəm, amma elə 2013-cü ilin prezident seçkilərində baş verən hadisələr fonunda kimlər Rusiyanın yanında daha çox görünürdüsə, onlar təqibə məruz qalmalı idi. Çünki Azərbaycan iqtidarı Rusiyanın yanında olacağı təqdirdə, Kremllə oynaya biləcək və onun dedikləri ilə düzlənəcək qüvvə və adamları aradan çıxartmalıdır. Əks halda, Rusiya faktoru onları təzyiq, təhdid vasitəsi kimi təşkilatlandırar və iş başındakı iqtidar "sözə baxmasa", əvəzləməyə çalışardı. İndi həbs olunanlar onu göstərir ki, Azərbaycan hələ də Avropa siyasi coğrafiyasındadır; buradan da ayrılmaq fikri yoxdur. O, ən açıq şəkildə Qərbə mesaj verir ki, Avropa dəyərlərinin müzakirə və tətbiqini aparacaq real qüvvə özüdür; alternativ ünvan axtarmasınlar; belə ünvan olmayacaq ... Deyir ki, hegemon mənəm, güc sahibi də mənəm, iqtidar sahibi də mənəm, bu dəyərlərin qapısını da sizin üzünüzə açan mən olacam.

***- O zaman niyə Qərb təmayüllü siyasi partiyalar repressiya prosesindən kənarda qalır?***

- Siyasi partiyalar... gəlin uzun illərin təcrübəsinə baxaq. Avropa və Amerikadan gələnlər - dövlət və beynəlxalq qurumlardan - daha çox vətəndaş cəmiyyətinin nümayəndələrinə diqqət, həm də para ayırıblar. Qərb bütün növ dəstəyi siyasi partiyalara yox, vətəndaş cəmiyyəti liderlərinə verir. Qərb institutlarının böyük əksəriyyəti, xüsusilə ərəb baharı dönəmindən sonra da işlədikləri sahə vətəndaş cəmiyyətinin nümayəndələri idi. Siyasi partiyaların üzərindən bir qədər keçmişdilər və siyasi partiyaları görməməzlikdən gəlirdilər. Hesab edirdilər ki, Azərbaycanda yeni münasibətlər sistemini saxlaya biləcək bir nəsil - vətəndaş cəmiyyəti nəsli yetişməlidir və onlar maarifləndirilərək, prosesin mərkəzinə gəlməlidir. Amma unudurdular bir şeyi, mən bunu hər zaman mövqelərimdə və görüşlərimdə qeyd edirdim ki, bu vətəndaş cəmiyyətinin nümayəndələri maarifləndirmə ilə, monitorinqlə məşğuldursa, bunlar bizim fəaliyyətimizi monitorinq edə bilərlər və ya bizim üzvlərimizi maarifləndirə bilərlər. Bunlar yeni adamlar maarifləndirmirlər. Tək-tək adamların maarifləndirilməsi hələ cəmiyyətin maarifləndirilməsi demək deyil və oradan bir uduş əldə olunmayacaq. Azərbaycan hakimiyyəti də Qərbin bu strategiyasını, vətəndaş cəmiyyətinə yönəlik fəaliyyət istiqamətini anlamamış deyil. Anlayır və başa düşür ki, Qərb institutları kimlərlə işləyir... Gəlin diqqət edək, son dövrlərdə siyasi partiyalarla işləyən iki institut var idi: ABŞ Milli Demokratiya İnstitutu və Respublikaçılar İnstitutu. Hər ikisi ölkədən çıxmışdı və artıq siyasi institutlarla işləmirdilər. İşləyən bütün sektorlar, ayrı-ayrı fondlar, ayrı-ayrı təşkilatlar, ayrı-ayrı hüquq-müdafiə sektoruna aid beynəlxalq təşkilatlar ölkəmizin daxilində ancaq vətəndaş cəmiyyətinin nümayəndələri ilə işləyirdilər. Siyasi partiyalara önəm vermirdilər. Vətəndaş cəmiyyətinin rolu ilə yanaşı, həm də Yaxın Şərqdə baş verən hadisələrdə üçüncü sektorun, daha çox sosial medianın və sosial mediada üçüncü sektorun nümayəndələrinin iştirakı ilə bağlı baş verən hadisələri də təhlil edərək bu nəticəyə gəlmişdilər ki, Azərbaycanda da üçüncü sektorla işləmək daha əlverişlidir. Çünki əvvəlcədən gəldikləri bu qənaət idi ki, siyasi partiyalarla işləyəndə Azərbaycan hakimiyyəti bunu çevriliş hazırlığı mexanizmi kimi düşünə bilir və sanki iqtidarın yerinə alternativ hazırlığı kimi qavrayır. Qərbə elə gəlirdi ki, iqtidar üçüncü sektorla işə mane olmayacaq...

***- İqbal bəy, bu arqumentləri indi buradamı düçünüb, tapdınız? Çünki çox uzun oldu...***

- Yox, burada niyə tapıram?

***- Bu, bir az qəribə səslənir, oxucu üçün də qəribə səslənir ki, hakimiyyət Qərblə işləmək istəyir, özünə ona görə şərik səhnədə saxlamır... Yəni bu, deməkdir ki, Azərbaycan bu görüntülərə rəğmən, Putinin çağırışına getməsinə rəğmən, Rusiya meylini və yönünü, o cümlədən Avrasiya İttifaqını seçmir?...***

- Əlbəttə. Birmənalı olaraq bunu bəyan edirəm. Azərbaycan Avrasiya İttifaqına getməyəcək. Bu, bütün sahələr üzrə görünür, bütün spektrlər üzrə görünür. Sadəcə iqtisadiyyatı təhlil etsək, Azərbaycanın büdcəsini təhlil etsək, sadəcə Azərbaycana gələn valyutanı, iqtisadi tərəfdaş ölkələri təhlil etsək, bunu görərik.

***- Bəs Azərbaycan necə edəcək? Necə dirəcənək Rusiyanın basqısına?***

- Putinin basqısı bu gün Avrasiya İttifaqının yaranma dönəmindəki basqı qədər deyil. Ukrayna hadisələri var, Qazaxıstanın mövqeyi var, Belorusiyanın fərqli mövqeyi var, artıq Azərbaycandan daha sərt bəyanat sərgiləyən Türkmənistanın, Özbəkistanın mövqeyi var. Və burada hədəfdə təkcə Azərbaycan deyil.

***- Qərb yönümünü dəstəkləyən elektorat, qəzetlər, siyasətçilər... onda biz sevinək ki, belədir vəziyyət? Sevinək ki, bu adamları tuturlar ona görə ki, hakimiyyət Qərb yönümünü seçir, yoxsa məyus olaq? Və bu, doğru yanaşmadırmı?***

- Azərbaycan hakimiyyəti Qərblə danışıqlarda təmas nöqtələrinin hamısını kəsir, yalnız özünü təqdim edir. Özü nə dərəcədə demokratikdir, nə dərəcədə Avropa dəyərlərini sürətli və uzun müddətli əxz edə biləcək, bunlar şübhə doğurur. Amma Azərbaycan hakimiyyətinin Avrasiya İttifaqına getməyəcəyi dəqiqdir, Avropa siyasi coğrafiyasında qaldığı da dəqiqdir. Həm də Avropa siyasi coğrafiyasının içərisində Azərbaycan çalışır ki, ölkə daxili siyasi səhnədə Avropanın güclü tərəfdarları olmasın; Qərbin tərəfdarları olmasın, bu prosesi özü bildiyi sürətlə, özü bildiyi qədər aparsın. Çünki cəmiyyətdə alternativlər olanda, Avropanın onları mənimsəmək və onlarla işləmək və bu prosesi sürətləndirmək imkanları çox olacaq. Hakimiyyət bu imkanları məhdudlaşdırır ki, bu şəkildə prosesi aparsın. Bu, açıq-aydın görünür.

***- Hakimiyyət müxalifəti də tutacaqmı? Və öz içindəki qərbyönümlüləri necə, tutacaqmı?***

- Yox. Düşünmürəm ki, hakimiyyət içərisində düşüncə etibarı ilə qərbyönümlü olanlar belə hakimiyyəti parçalamaq dərəcəsinə qədər yüksək mövqeyə və məqama malikdirlər.

***- Leyla Yunusmu parçalayacaqdı hakimiyyəti?***

- Leyla Yunus hakimiyyəti parçalamır. Leyla Yunus tək deyil... Mən fərdiləşdirmək istəmirəm. Bu adamların çoxu Avropa ilə hakimiyyətdəkilər qədər dəyərləri müzakirə edəcək adamlardırlar. Onlar Qərb üçün avtoritetlərdir. Bu adamları sıradan çıxarırlar. Partiyalara gəldikdə isə, partiyaların özü bir siyasi institut olduğuna, onlara birbaşa dəstəyin qanunlarla qadağan edildiyinə görə onsuz da kontrolda saxlanılır və iqtidar da anlayır ki, siyasi partiyaların böyük maddi dəstək alması mümkün deyil. Bu səbəbdən də siyasi partiyaların üzərindən sükutla keçir.

***- Yəni QHT-lər Avropadan, Qərbdən böyük pul alırdılar ki? Böyük məbləğ idi?***

- Mən məbləği bilmirəm. Elə yeri gəlmişkən də, onu deyim ki, müdafiənin özündə də ən böyük qüsur elə budur. Rəsmi elan olunan ittihamları təhlil və tövsif etmək əvəzinə, siyasi bəyanat verir hamı. Məsələn, konkret olaraq, bir hüquq müdafiəçisi qanunsuz sahibkarlıq, vergidən yayınma, səlahiyyət həddini aşma və sair maddələrlə ittiham olunur. İlk növbədə onu müdafiə edənlərin, peşəkar müdafiə edənlərin vəzifəsi nə olmalıdır? Bu ittihamlar qarşısında müdafiənin şəffaflığını təmin etməlidir, bu qədər qrant alınıb, bu qədər dövlətə vergi verilib, vergi qanunvericiliyi pozulmayıb, sahibkarlıq haqqında qanun pozulmayıb, ilk növbədə bunlar ortaya qoyulmalıdır. Sonra dəstək kampaniyası keçirilməlidir. Biz sonradan siyasi bəyanat verə bilərik.

***- Bəs, qanunvericilik və qaydalar pozulubsa?***

*(Ardı var)*

**❑ Söhbəti qələmə aldı: Röya RƏFİYEVA**
**Foto: Məhəmməd TÜRKMƏNİN**



### "Biz Rusiyanın yanında olsaq, Ermənistan Qərbin yanında olacaq, biz Qərbin yanında olsaq, Rusiya Ermənistanın yanında olacaq və nəticə etibarı ilə konflikt həll olunmayacaq"



# Türk düşmənlərinə yeni mesajlar

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Qardaş Türkiyə xalqı 12-ci prezidentini özü seçdi. 12 rəqəmi müqəddəsdir deyirlər. Düşərli olsun Türkiyəmiz üçün, Azərbaycan üçün, Qarabağ üçün, türk dünyası üçün!..**

Gözləntilərə gəlincə, inanırıq ki, prezident Ərdoğan ölkəni iqtisadi çiçəklənmə yolu ilə aparmaqda davam edəcək, dünyada və regionda Türkiyənin nüfuzunu artıraraq daha da hesablaşılan regional gücə, ciddi söz sahibinə çevirmək üçün bacardığını əsirgəməyəcək.

Keşkə, bu yolda o, demokratiya və qanunun aliliyi, milli barış yönündə səylər göstərməyi də unutmaya. Seçki sonrası elan elədiyi kimi, tezliklə "barış erası"na başlaya ki, daxili siyasətdə əvvəlki kolliziyalar, sosial-siyasi sarsıntılar yaşanmasın. Cənab Ərdoğan yəqin onu da ciddiyə alacaq ki, elektoratın 48 faizi onun siyasətindən narazıdır. Bu, böyük rəqəmdir.

Barış, daxili sabitlik qarmaqarışıq dünyamızda Türkiyəyə çox vacibdir. Zira, xarici siyasət daxili siyasətin davamı sayılır. Türkiyə xarici siyasətini isə qarşıdakı bir ildə yeni qlobal çağırışlardan dolayı olduqca çətin sınaqlar gözləyir - uydurma soyqırım, Qarabağ, Yaxın Şərq (İraq, Suriya), İŞİD, kürd məsələləri... Onlardan uğurla çıxmaq üçün vətəndaş sülhü birinci şərtdir. Yox, ölkədə "əcinnə ovu" davam edəcəksə, onda - heç zad. Altını Türkiyə ilə birgə Azərbaycan da çəkəcək.

Azərbaycanın əsas gözləntisi isə bəlli. Bunlar Qarabağ ixtilafı və Ermənistanla sərhəd məsələsidir. Görəsən, pessimizmə qapılmağa əsas varmı? Bizcə, yox. Ən azından son iki fakt bədbin olmamağa zəmin yaradır: biri Türkiyə vətəndaşlarının Azərbaycan Müdafiə Nazirliyinə müraciət eləməsi faktıdır. Nazirliyin bilgisinə görə, artıq xeyli türkiyəli tərəfindən quruma rəsmi internet saytı vasitəsi ilə müraciətlər daxil olub. Onlar ordumuzun sıralarında erməni işğalçılarına qarşı döyüşməyə şərait yaradılmasını istəyiblər.

İkinci önəmli fakt son döyüşlərdə yaralanmış bir neçə hərbçimizin ötən həftə Türkiyəyə aparılaraq pulsuz müalicəsinin təşkili, dərhal da onlara xarici işlər naziri, yeni baş nazirliyə ən potensial namizəd olan Əhməd Davudoğlunun baş çəkməsidir. Qardaş ölkənin hökuməti, təbəələri və rəsmiləri tərəfindən bu jestlər əlbəttə ki, alqışa layiqdir, çox qiymətlidir və Azərbaycan xalqına, hərbçilərimizə böyük ruh, stimul verir. Eyni zamanda Ermənistan və onun havadarlarına Türkiyənin xəbərdarlıq mesajlarıdır bunlar. Özü də vaxtında verilmiş mesajlar.

Bu, o deməkdir ki, Türkiyə həmişəki kimi, yenə yanımızdadır, yanımızda olacaq. Bu, həmçinin, qardaş ölkənin xarici siyasətində Azərbaycana verilən prioritetin, bənzərsiz önəmin növbəti təsdiqidir. Ərdoğanın prezident qismində ilk xarici səfərini Azərbaycana planlaşdırması bu önəmin daha bir sanballı nümayişi olacaq.

Artıq ermənilər də duyuq düşüb ki, Ərdoğan dönəmində Türkiyə Qarabağ və uydurma soyqırım məsələsində prinsipial mövqeyindən çəkilməyəcək. Təsadüfi deyil ki, 10 avqust seçkisindən sonra işğalçı ölkənin prezidenti Serj Sərkisyan yeni prezidentin Ermənistana hər hansı ciddi reverans edəcəyini gözləməyin mənasız olduğunu söyləyib. Erməni təhlilçilərini də qeyd edir ki, Ərdoğan xalqdan birbaşa mandat alandan sonra bu siyasət dəyişməyəcək.

Doğrudan da dəyişsəydi, 12 ildə dəyişərdi. Dəyişsəydi, AKP hökuməti çoxdan bu iki məsələdə Qərblə bazarlığa gedib, Türkiyəni Avropa Birliyinə asanca üzv edərdi. Dəyişməsi mümkün də deyil, çünki quşdan ayıq Türkiyə toplumu buna imkan verməz. Korrektələr, manevrlər, diplomatik oyunlar isə həmişə ola bilər, böyük siyasətdə bu lazımdı da, ancaq kurs yerində qalacaq, əminik.

Həm də o səbəbə ki, qardaş ölkənin bölgəmiz üçün əhəmiyyəti artır ki, azalmır. Məsələn, sanksiyalarla zəifləyən Rusiyanın fonunda Türkiyə iqtisadi inkişafını davam etdirdir. Üstəlik, Rusiyanın Türkiyəyə getdikcə daha çox ehtiyacı yaranır ki, bu da Azərbaycanın maraqlarına uyğundur...

***

**Türkiyənin gücü Azərbaycanın gücü deməkdir və əksinə. İki qardaş ölkə yeni böyük təhdidləri yalnız əl-ələ verməklə, sinxron siyasətlə, düşmən hiyləsinə uymamaqla dəf edə bilər. İnşallah, dəf edəcək də!..**

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014




# Ər-arvad özünü Prezident Administrasiyası qarşısında yandırdı

## Ailənin "odlu etirazı"na məhkəmə qərarı ilə yaşadıqları evdən çıxarılmaları səbəb olub; PA-nın nümayəndəsi xəstəxanada etirazçılarla görüşüb

**Avqustun 13-də səhər saatlarında Qarabağ müharibəsi veteranı Elçin Salahov yoldaşı Jalə Salahova ilə birgə Prezident Administrasiyası önündə özlərini yandırıblar.**



Hazırda hər iki şəxs 5 saylı xəstəxananın yanıq şöbəsindədir.

Şöbədən "Azadlıq" radiosuna verilən məlumata görə, özünü yandıranlardan birinin vəziyyəti ağırdır: «33 yaşlı Jalə Salahovanın vəziyyəti çox ağırdır. Onun bədəninin 45 faizi yanıb, hazırda reanimasiya şöbəsindədir. 39 yaşlı Elçin Salahovun vəziyyəti nisbətən yüngüldür və o, palataya köçürülüb».

Xəstəxanadan onu da bildiriblər ki, adıçəkilən şəxslər evlərinin qanunsuz və kompensasiya verilmədən sökülməsinə etiraz olaraq özlərini yandırıblar.

Virtualaz.org-un xəstəxanada olan əməkdaşı isə bildirib ki, Prezident Administrasiyasının işçisi özünü yandıran Sumqayıt sakinləri ilə görüşmək üçün xəstəxanaya gəlib. PA rəsmisi özünü yandıran ailə başçısı Elçin Salahovla təklikdə söhbət edib. Görüş barədə əlavə məlumat almaq mümkün olmayıb.

E.lçin Salahovun bacısı Yeganə Mahmudova isə hadisənin səbəblərini virtualaz.org-un müxbirinə danışıb. Y.Mahmudova bildirib ki, qardaşının və onun həyat yoldaşının özlərini yandırmasının səbəbi evlərinin sökülməsi yox, yaşadıqları evdən çıxarılmaları və onlara ödənilməli olan məbləği ala bilməmələridir: "Qardaşım 2005-ci ildə öz bacanağı Abuzərdən qanuni sənədləri olan ev aldı. 10 min manat da pul vermişdi. Sumqayıtda Hacı Zeynalabdın Tağıyev qəsəbəsində olan həmin evə qeydiyyata da düşdülər. Sonra bacanaqları Rusiyaya getdi. Bunları aldatdı. Qardaşımgilin yaşadıqları evin bir neçə vərəsəsi çıxdı. Vərəsələr də elə bacanağı Abuzərin qardaş və bacıları idi. Onlar qardaşımı məhkəməyə verdilər. Aldıqları sənədlər məhkəmə tərəfindən etibarsız sayıldı. Məhkəmə onların evdən çıxarılması və qardaşımgilə zərərçəkən şəxs kimi 14 min manat pul ödənilməsi qərarını verdi. Lakin həmin evin vərəsələri olan şəxslər bu pulu ödəmədilər. Məhkəmə bir ay ərzində qardaşımın və ailəsinin evdən çıxarılmasını tələb edir. İmkansız ailədir. Süründürməçilikdən beziblər. Məhkəmə onların əleyhinə qərar çıxardı, pullarını da ala bilmədilər. Ancaq belə bir addım atacaqlarını gözləmirdik".

Onun sözlərinə görə, qardaşı 1992-1997-ci illərdə Tərtərdə cəbhə bölgəsində döyüşüb. Digər qardaşı isə Qazaxda hərbi xidmətdə olub.

Y.Mahmudova qardaşının rəssam, həyat yoldaşının isə evdar qadın olduğunu deyib.

"Prezident Administrasiyasından gələn nümayəndəyə, prokurorluq və polis əməkdaşlarına problemlərim haqda danışdım. Məni diqqətlə dinlədilər. Məsələni araşdıracaqlarını, şikayətimizə baxılacağını dedilər".

Bunu virtualaz.org saytına açıqlamasında həyat yoldaşı ilə birgə özünü Prezident Administrasiyasının qarşısında yandıran Elçin Əlimuradoğlu deyib.

Bel nahiyəsinin və ayaqlarının daha çox yandığını deyən E.Əlimuradoğlu hazırda ona sistem qoşulduğunu və narahat olduğundan danışa bilmədiyini söylədi.

**E.Əlimuradoğlu həyat yoldaşı Jalə Salahovanın vəziyyətinin daha ağır olduğunu və onun hələ də reanimasiyada saxlanıldığını da bildirdi.**

❑ Xəbər xidməti

# "Ölkədə hüququn tənzimlənmə mexanizmi yoxdur"

## Sədaqət Paşayeva: "Hər il cəmiyyətimizdə 200 nəfərə yaxın qadının işinə baxılır"

**Son vaxtlar ölkədə boşanmalar, qadın zorakılığı, qadınların cinayət törətməsi və həbs edilməsi halları artıb. Elə Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin əməkdaşı, hüquq müdafiəçisi Sədaqət Paşayeva ilə söhbətimizdə də həm bu məsələlərdən, həm də son vaxtlar çalışdığı cəmiyyətin ünvanına olan ittihamlarla bağlı danışdıq.**

***- Bəzi şəxslər Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətini siyasi məhbuslarla bağlı heç bir iş görməməkdə ittiham edir. Bu ittihamlar nə dərəcədə əsaslıdır?***

- İnsan haqları və hüquq müdafiəçiləri ilə bağlı ölkədə yaranmış son vəziyyətlə bağlı müxtəlif fikirlər mövcuddur. Jurnalist Xədicə İsmayıl bu yaxınlarda bizə qarşı ittiham irəli sürdü ki, Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti qrant alır, ancaq siyasi məhbuslarla bağlı heç bir iş görmür. Bu çox ciddi bir ittihamdır. Jurnalistin bir məsələni araşdırmadan belə kəskin bir fikir söyləməsi düzgün deyil. Jurnalist yaxşı olardı ki, siyasi məhbuslarla bağlı məsələni araşdırma mövzusu kimi işləsin və öyrənsin ki, məsələ ilə bağlı kim hansı işi görür və hansı qrantı alır. Təəssüflər olsun ki, hazırda hüquq müdafiəçiləri ilə bağlı ümumi bir yanaşma mövcuddur və ciddi ittihamlar irəli sürülür. Bu da bizi narahat edir. Biz dəfələrlə demişik ki, ölkəmizdə hüququn tənzimlənməsi mexanizmi yoxdur. Qatıldığımız tədbirlərdə də Azərbaycanda siyasi məhbusların hüquqlarını müdafiə etmək üçün məqbul mühitin olmadığını bildirmişik. Yaxşı olardı ki, biz bütün hüquq müdafiəçiləri və vəkillər buna etiraz edək. Hüquq müdafiəçiləri və vəkillər siyasi məhbusların məhkəmələrində iştirak etməsin. Vəkil prosesə sadəcə olaraq bir tərəf, müvəkkilinin mesajını gətirən bir insan kimi qatılsın və bəyan etsin ki, Azərbaycanda siyasi motivlər əsasında həbs olunan insanların heç biri öz əməlləri, siyasi fəaliyyətlərinə görə yox, digər qeyri-siyasi vasitələrlə mühakimə olunurlar. Nə qədər çox vəkil bu proseslərdə iştirak etsə də hansısa bir nəticəyə nail ola bilmirlər. Məsələn, insan haqları ilə bağlı hesabatlara nəzər yetirsək görərik ki, bir siyasi məhbusun azı 4-5 vəkili var. Bu da vəkillərin müdafiə işi ilə bağlı məsələnin dırnaq içinə salınmasına gətirib çıxarır. Buna görə də ölkədə siyasi müstəvidə olan məsələlərin həllində birliyə ehtiyac var.

Bizim fəaliyyətimizə gəlincə, Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti yarandığı gündən bu günə qədər ardıcıl olaraq qadın hüquqlarının müdafiəsi ilə məşğuldur. Eyni zamanda insan haqları və demokratiya ilə bağlı maarifləndirmə tədbirləri keçirir və bununla bağlı çoxlu uğurları var.



***- Qadınlar daha çox hansı şikayətlərlə müraciət edirlər?***

- Bizə daha çox işdən haqsız yerə çıxarılan, boşanma, ailə zorakılığı və yaxud da hansısa digər zorakılığa məruz qalan qadınlar müraciət edir. Hər il 200 nəfərə yaxın qadının işinə baxılır. Onlara hüquqi məsləhət verilir və məhkəmədə hüquqları müdafiə olunur. Çox saylı qadınların isə ictimai fəallığını artırmasına dəstək olmuşuq. Mövcud qanunvericiliyimizdə insan haqlarının müdafiəsi ilə bağlı çox ciddi boşluqlar var. İstər ailə, istər cəmiyyət, istərsə də dövlət-vətəndaş münasibətlərində, mülki və digər məcəllələrdə boşluqlar var. Qanunda olmayan normalarda isə vəkillərin müdafiə işi bəzən effektli olmur və çox vaxt da vəkillər perspektivli olmayan işləri götürmürlər. Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin daha uğurlu bir işi odur ki, biz dövlət və hüquq-mühafizə orqanlarında ədalətin gerçəkləşməsi üçün çalışırıq.

***- Sizin cəmiyyət haqsızlıqla üzləşən qadınları hansı səviyyəyə qədər müdafiə edə bilir?***

- Məhkəmə praktikasındakı uğurlarla bağlı mövzuya ayrıca baxmaq lazımdır. Övladlığa götürülmə, mülki münasibətlərin tənzimlənməsində və digər məsələlərlə bağlı Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin ardıcıl müdafiəsi nəticəsində məhkəmələrdə çox uğurlu qərarlar ortaya çıxıb. Məsələn elə qadınlar olub ki, biz onların hüquqlarını 2-3 il müdafiə edib sonda ədalətli qərar ala bilmişik. Yaxşı olardı ki, bəzi jurnalistlər hüquqşünasları ittiham etmədən əvvəl öyrənsinlər ki, hüquq müdafiəsi anlayışı nədir, hüquq müdafiə işinin ölkədəki vəziyyəti necədir. İnsan haqları, zorakılıq, gender bizim üçün yeni bir anlayışdır və demək olar ki, müstəqillik qazandığımız zamanla yaşıddır. Biz ən mötəbər dövlət qurumlarında belə insanların pozulmuş hüquqlarının bərpasına nail olmuşuq. Məsələn onlardan biri Heydər Əliyev adına Ali Hərbi Məktəblə bağlı idi. Oranın bir müəlliməsi işdən çıxarılmışdı. Onun məhkəmə prosesi bir ildən artıq davam etsə də, sonda haqq-ədalət yerini tapmış və həmin müəllimə işinə bərpa olunmuşdu. Bizim digər bir məhkəmə praktikasında belə bir hal da vardı ki, qadın boşandığı zaman onların mənsub olduğu torpaq özəlləşdirilməmiş torpaq idi və burada ev tikildiyi üçün mübahisə yaranmışdı. Biz bu işlə bağlı çox əziyyət çəksək də, haqq-ədalətin yerini tapmasına nail olduq. Cəmiyyətin bu baxımdan çox müsbət və uğurlu xidmətləri var. Bilirsiniz ki, ailə zorakılığı ilə bağlı qanun qəbul edilmirdi. Parlamentdə dəfələrlə bu qanun birinci oxunuşdan kənara atılırdı ki, belə fikirlər səsləndirilirdi ki, bizim milli dəyərlərimiz var, ailə qanunla qorunarsa, o ailə dağılar və s. Amma Azərbaycanda get-gedə ailə, uşaq zorakılığı və qətllərlə bağlı faktların artması bu qanunun qəbul olunmasına ehtiyacı artırdı. Türkiyə ilə milli və dini köklər baxımından yaxın olduğumuz üçün Türkiyə təcrübəsinin Azərbaycana gətirilməsi ilə bağlı layihə işlədik. Layihəmiz uğurlu oldu və həmin ildə də qanun qəbul edildi. Yəni bizim cəmiyyətimizin dövlətə, insan haqları və demokratiyanın inkişafına dəstək olacaq bir fəaliyyəti olub.

***- Özünü hüquq müdafiəçisi adlandırılanların sayı getdikcə artır, buna münasibətiniz necədir?***

- Bu gün hüquq müdafiələri ilə bağlı çoxlu sayda beynəlxalq qanun qəbul edilsə, müqavilə bağlansa da hüquq müdafiəçilərinin qorunması və onların fəaliyyətlərinin tənzimlənməsi ilə bağlı hər hansısa bir beynəlxalq sənəd və müqavilə yoxdur. Bu boşluqdan da bəzən hüquq müdafiəçisi işi ilə məşğul olan insanlar, bəzən də hüquqları pozan dövlət orqanları istifadə edir. Eyni zamanda hüquq müdafiəçiliyi ilə məşğul olan insanların beynəlxalq akkreditasiyası mövcud olmalıdır. Bu insanlar attestasiyadan keçirilməlidir. Onların nə dərəcədə qabiliyyətli, bilikli olduğu öyrənilməlidir. Yaxşı olardı ki, KİV də bu məsələni daim diqqətdə saxlasın.

❑ Günel MANAFLI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014

# Prezidentlərin görüşünün ikinci raundu hazırlana bilər

**"Həmsədrlər yaxın vaxtlarda bölgəyə səfəri etmək niyyətindədir, lakin səfərin tarixi hələ müəyyənləşdirilməyib". Bu barədə APA-nın sorğusuna cavabında ATƏT Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik deyib.**
**Həmsədr bildirib ki, prezidentlər payızda görüşərək münaqişənin sülh yolu ilə həllinə dair danışıqların irəliləməsi üçün Soçi müzakirələrini davam etdirə bilər: "Həmsədrlər danışıqların irəliləməsi üçün əllərindən gələn dəstəyi verməyə hazırdır. Ermənistan və Azərbaycan xalqları da anlamalıdırlar ki, davam edən münaqişə onların dövlətlərinin maraqlarına cavab vermir. Ümid edirəm ki, insanlar səslərini ucaldaraq sülhə dəstək verəcəklər".**

## Həmsədrlər regiona gəlmək istəyir; QAT isə onları ölkəyə buraxmamağa çağırır

Həmsədrlərin növbəti səfərinə münasibət bildirən **Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı** isə teleqraf.com-a deyib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri ölkəyə buraxılmamalıdır. Onların ölkəyə girişinə qadağa qoyulmalıdır, fəaliyyətləri dayandırılmalıdır. Onun sözlərinə görə, QAT yaxın vaxtlarda həmsədrlərin ölkəyə buraxılmaması ilə bağlı konkret addımlar atacaq: "Bununla bağlı konkret hərəkətlərimiz olacaq. Bu bizim onların fəaliyyətsizliyinə etirazımız olacaq. Hazırda müzakirəmiz gedir, yəqin ki, vaxt yaxınlaşdıqca etirazımızın forması da müəyyənləşəcək. Biz onlarla partizan müharibəsinə başlamayacağıq ki? Hər halda bunlar beynəlxalq təşkilatın nümayəndələridir, beynəlxalq missiyadır. Ən azı öz mövqeyimizi ortaya qoyacağıq. Bundan əvvəl də bu cür aksiyalarımız olub. Onları hava limanında - VİP zalın qarşısında qarşılamışıq. Aksiya keçirmişik ki, qayıdın geri. Yəni, dəfələrlə bu cür aksiyalarımız olub. Gecə, gündüz nə vaxt gəliblər çıxmışıq onların qarşısına". A.Nağı bildirib ki, həmsədrlər və onların təmsil etdikləri dövlətlər sadəcə olaraq insanların etirazını başa düşmək istəmirlər: "Özləri Avropa dəyərlərini, demokratiya prinsiplərini ortaya qoyur və deyirlər ki, ona əməl olunmalıdır. Əslində isə özləri xalqdan gələn etiraza məhəl qoymurlar. Dəfələrlə biz onların mətbuat konfransı keçirdikləri zallara daxil olmuşuq. Demişik ki, siz Azərbaycanın başını aldadırsız, cəmiyyətə yalan mesajlar verirsiz, təcili Bakını tərk edin. Amma başa düşmək istəmirlər. Onlar bizi daha kəskin metodlara əl atmağa məcbur edirlər. İstəyirlər zorla onların qollarından tutaq, bir təpik də vurub deyək ki, rədd olub gedin burdan".



Bu arada **Britaniyanın Müstəqil Araşdırmalar və Münaqişələrin Analizi Mərkəzinin direktoru Kristofer Lenqton** bildirib ki, Rusiya tez bir zamanda Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün ikinci raundunu təşkil edəcək. Çünki Moskvaya Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesində çox şeyə nail olmaq vacibdir.

Modern.az bildirir ki, ekspertin sözlərinə görə, Azərbaycan və Ermənistan prezidentlərinin Rusiyanın dövlət başçısının iştirakı ilə Soçidəki danışıqlarının bir ciddi nəticəsi olub - danışıqların bundan sonra da davam etdirilməsi ilə bağlı razılığa gəlinib.

Onun fikrincə, cəbhə bölgəsində atəşkəs rejiminin intensiv pozulması da azalacaq.

**Millət vəkili, Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafa** prezidentlərin Soçi görüşü ilə bağlı facebookda yazıb ki, Azərbaycanın öz torpaqlarını azad etməyin yolu, heç şübhəsiz ki, müharibədən keçir:

"Soçi görüşündən sonra sadə insanların da, medianın da suallarına təəccüblənməyə bilmirsən. Hamıda elə təsəvvür varmış ki, Putin prezidentləri ona görə çağırıbmış ki, bir neçə rayonu Ermənistandan alıb bizə versin və bizi də Avrasiya İttifaqına soxsun... Putin niyə bunu etməliydi ki? Tutaq ki, Putin Ermənistandan tələb etdi ki, işğal olunan bir neçə rayonu qaytar, Ermənistan da uşaq oyuncağı kimi götürdüyünü bizə qaytaracaq? Rusiya uzaqbaşı və ən yaxşı ehtimal kimi bizə təminat verər ki, Azərbaycan ordusu hücum etsə, onlar bilavasitə müdaxilə etməyəcək, o zaman yenə də savaşaraq torpağı almaq lazım gələcək".

**Millət vəkilinin sözlərinə görə, Dağlıq Qarabağ məsələsində sehrli heç nə baş verməyəcək. O, bu savaşın qalibinin də ağıllı və güclü tərəf olacağını hesab edir:** "Müharibədən danışanların əksəriyyəti şüuraltında hansısa fövqəladə gücün və ya sehrli barmağın məsələni çözəcəyini daha çox düşünür. Ancaq sehrli heç nə baş verməyəcək, kim daha ağıllı və çalışqandırsa, prosesi də o, uduşla tamamlayacaq". **Millət vəkili hesab edir ki, bizə zəruri olan isə soyuqqanlı, və peşəkar vətənsevərlikdir:** "Müharibə isə uzun sürən bir prosesdir və əsas hədəfə çatmayana qədər, kiçik uduşların arxayınçılığına, sevincinə özünü qapdırmaq olmaz".

# "Müharibə o zaman bitəcək ki, Ermənistan dövləti olmayacaq"



## Rusiyada yaşayan Azərbaycan əsilli politoloq hesab edir ki, Azərbaycanın düşdüyü vəziyyət ondan qəti addımlar atmağı tələb edir; **Heydər Camal:** "Belə məsələləri ildırım sürətilə, blitskriqlə, 2-3 gün ərzində həll eləmək gərəkdir..."

**Prezidentlərin Soçi görüşü və onun mümkün nəticələri Rusiyanın ictimai-siyasi və ekspert dairələrində də davamlı şəkildə müzakirə edilməkdədir. Soçidə konkret bir ortaq sənəd və ya birgə bəyanat qəbul edilməsə də tərəflər arasında hansısa gizli anlaşma əldə olunduğu barədə də söz-söhbətlər dolaşır. Hətta Dağlıq Qarabağın 5 milyard dolların qarşılığında 2019-cu ilədək qaytarılacağı barədə fikirlər səslənib.**

Soçi görüşünə və onun fonunda mümkün müharibə ehtimalları, müharibədə hansı qlobal güc mərkəzinin maraqlı olması, habelə Dağlıq Qarabağ konfliktinin həll perspektivləri ən müxtəlif rakurslardan şərh və təqdim edilməkdədir. Yanaşmalar bəzən diametral zidd olsa da, bir şeyi dəqiqdir: uzun müddət dondurulmuş hesab edilən Dağlıq Qarabağ konfliktinin "donu" artıq açılıb və həm regiona, həm də qlobal təhlükəsizliyə təhdidi olan bu köhnə münaqişə bir an öncə həllini tapmalıdır.

Bu xüsusda **Rusiya İslam Komitəsinin sədri, Azərbaycan əsilli ictimai-siyasi xadim Heydər Camalın** fikirləri də kifayət qədər maraq doğurur. "Kavkazskaya politika"ya ("Qafqaz siyasəti") nəşrinə müsahibəsində Heydər Camal öncə cəbhə xəttində bu ayın əvvəllərində situasiyanın qəfil kəskinləşməsinin səbəblərinə aydınlıq gətirib.

**Onun qənaətincə, əsas səbəb Ukraynadakı situasiya ilə bağlıdır:** "Krımın ilhaqı, Ukraynanın cənub-şərqindəki döyüş əməliyyatları Rusiyanın xarici siyasət situasiyasının qəfil pisləşməsinə gətirib. Nəticədə Rusiyanın arbitrliyindən ehtiyat eləmədən Qarabağ uğrunda mübarizəni sərtləşdirmək üçün əsaslar yaranıb. Tam məntiqli və proqnoz ediləndir ki, Ukrayna böhranı Qarabağ məsələsinin həlli səylərini doğurub".

**Ekspertə görə, hazırda Rusiya bütünlüklə Ukrayna problemi ilə yüklənib və bu üzdən o, başqa mövzulara diqqət ayırmaq imkanları kəskin azalıb:** "Rusiya həmişə Qarabağ probleminin həlli yolunda əsas maneə olub. Azərbaycanla Ermənistanın münasibətlər tarixi göstərir ki, Qarabağ ixtilafını hərbi güclə yoluna qoymaq lazımdır... Ancaq belə məsələləri ildırım sürəti ilə, blitskriqlə, 2-3 gün ərzində həll etmək gərəkdir. Sadəcə, öhdəndəki bütün güc-imkanlar işə salınmalıdır. Düşünürəm ki, vuruşmaqdısa, vuruşmaqdır. Nə danışıqlar ola bilər ki? Moskvanın arbitr qismində rolu MDB çərçivəsində suveren tərəfdaşların sərhədlərinin təzədən dəyişdirilməsi ilə artıq gözdən salınıb. Gürcüstandan Abxaziya və Cənubi Osetiyanı, Ukraynadan Krımı qoparıblar. Nə "böyük qardaş" söhbəti ola bilər indi? Bu konyukturadan çıxış edərək Bakı sərt və qətiyyətli hərəkət eləməli idi. Bakı isə belə eləmir. İstənilən ləngimə və istənilən temp itirilməsi - siyasi kapitalın xərclənməsidir, hansı ki, konfliktin əvvəlində Azərbaycanda olub".

> **"Azərbaycan-Ermənistan münasibətlərinin tarixi göstərir ki, Qarabağ ixtilafını yalnız hərbi güclə yoluna qoymaq lazımdır"**

**H.Camala görə, Azərbaycanın düşdüyü vəziyyət ondan qəti addımlar atmağı tələb edir. Qərbin məsələdə axıradək Bakının yanında olub-olmamasına münasibət bildirən ekspert deyib:** "Azərbaycan neft deməkdir. Londonla əlaqə deməkdir, İsraillə sıx əlaqə deməkdir. Hərgah, Rusiyanın da İsraillə yaxşı əlaqələri var, Netanyahu Putinin şəxsi dostudur. Ancaq geosiyasi yanaşma baxımından düşünürəm ki, sərt seçim edilərkən İsrail Qərbdə yəqin ki, Bakının maraqları üçün lobbiçilik edəcək, nəinki Moskvanın. Zəifləmiş Rusiya, yeri gəlmişkən, sionist isteblişmentini müəyyən dərəcədə qane edir. Güney Qafqazdakı siyasi kapitalın əsas hissəsi rəsmi Bakının əlində cəmləşib. Ancaq indiki kimi ləng və zəif hərəkət edəcəyi təqdirdə kapital axıb gedəcək..."

**Bəs, Azərbaycan öz torpaqlarını azad eləmək üçün, Dağlıq Qarabağı geri almaq üçün döyüşməyə hazırdımı, daim müharibəni gözləməyə vərdiş eləmiş xalqla nə baş verəcək və nə vaxt bu müharibə qurtaracaq? Suala soydaşımız orijinal cavab verib:** "Niyə qurtaracaq ki? Müharibə o zaman qurtaracaq ki, Ermənistan dövləti daha mövcud olmayacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Teymur HƏSƏNLİ

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014



# "Əcinnə ovu" kimə lazımdır?

Hüseynbala SƏLİMOV

**Bəzən sual da artıq görünür. Ona görə ki, hər şey göz önündədir- siyasi atmosfer o qədər ağırdır, adama elə gəlir ki, hakimiyyət tamamilə uzurpasiya edilib, qeyri-müəyyən müddətə siyasi hüquq və azadlıqlar yasaq edilib, yaxud da ki, kəskin şəkildə məhdudlaşdırılıb...**

Diqqətin qeyri-hökumət təşkilatlarına, hüquq-müdafiə fəallarına yönəldiyi dönəm bəlkə də qəribə görünür. Amma bəri başdan deyək ki, məqam uğurla seçilib - indi dünyanın başı Ukraynada, Yaxın Şərqdə baş verən proseslərə qarışıb.

Elə bölgənin özündə də gərgin vəziyyət hökm sürür. 20 illik atəşkəs rejimindən sonra tərəflər-Azərbaycan və Ermənistan ya döyüş bölgələrində arabir, seyrək pozulan sükutdan bezdiklərindən, ya da hansısa daxili və xarici problemi yoluna qoymaq istədiklərindən atəşkəs rejiminin imkan verdiyi gərginlik çərçivələrindən ciddi şəkildə kənara çıxıblar, hətta bir-birini və dünyanı müharibəni yenidən alovlandırmaqla hədələyirlər....

Təbii ki, bəzi sovet şairləri kimi "Ağcaqum çölündə qatar düz gedir, Piter fəhləsindən xəbərsiz gedir!", - deyəcək səviyyədə də sadəlövh deyilik. Demirik ki, əgər sadalanan proseslər olmasaydı dünya birliyi bir dirijor cubuğunun hərəkətilə son günlərdə Azərbaycanda baş verən prosesləri, ictimaiyyət fəallarına qarşı təzyiqləri dayandırardı.

Yox, bu qədər də sadəlövh deyilik, amma adi vaxtlarda baş verən hadisələrə reaksiya özünü çox da gözlətmirdi...

21 il az dövr deyil. Yeni Azərbaycan Partiyasının hakimiyyətdə olduğu bu müddət ərzində onun siyasi taktikası, siyasi davranış qaydaları haqqında bir qənaət əldə etməmək mümkün deyil, adam özü öyrənməsə də illər ona nəyisə öyrədir.

Əvvəllər də siyasi partiyalara, mətbuata, qeyri-hökumət təşkilatlarına qarşı basqılar olub. Əslində nəyin dünən yox, məhz bu gün baş verməsi də təsadüfi deyil. Əvvəllər qeyri-siyasi təzyiq qrupları, hətta silahlı dəstələr vardı. Hakimiyyət üçün onların zərərsizləşdirilməsi daha önəmli idi. Daha sonra siyasi partiyaların növbəsi gəldi. O vaxt mətbuat düşündü ki, onun hakimiyyət iddiası yoxdur, hakimiyyətin problemi isə yalnız siyasi partiyalarladır.

Bundan sonra mətbuatın növbəsi yetişdi- çox populyar qəzetlərin bağlandığı, jurnalistlərin sorğu-suala tutulmaq üçün müvafiq strukturlara aparılıb-gətirilməsi başlandı.

O vaxt QHT liderləri də düşündü ki, onların da, ümumiyyətlə, hakimiyyət iddiası yoxdur və daha çox maarifçilik işləri ilə məşğul olduqlarından hakimiyyət onlara heç vaxt toxunmayacaq...

Amma budur, onların da növbəsi çatdı-indi bütün QHT liderləri sanki "iynə üstündə" oturublar, çünki hamısına qarşı bir iş düzüb-qoşmaq mümkündür...

Bəs bütün bunlar niyə edilir? Əslində bu sualın bircə cavabı var: bu təqiblər qeyri-məhdud hakimiyyətə yiyələnmək, ona nail olmaq üçün edilir...

Əvvəllər müxalifət düşərgəsində yaranmış bölgünü hakimiyyət düşərgəsinə şamil edən bəzi optimist təhlilçilər hakimiyyətdə də "mühafizəkar" və "islahatçı" axtarırdılar. Bu 21 ildə hakimiyyətdə kifayət qədər mühafizəkar tapdıq, amma islahatçı tapa bilmədik. İslahatçılar ya ümumiyyətlə yox idilər, ya da o qədər az və zəif idilər ki, onları hakimiyyətin yüksək eşelonunda görmək mümkün olmadı.

Buna rəğmən isə, bu son illərdə mühafizəkarlar öz mövqelərini kifayət qədər möhkəmləndirdilər. Son vaxtlarda bir neçə təyinat isə bunun nümayişkəranə təqdimatı oldu-peşəsi yalnız müxalifətə qarşı danışmaq olan bir neçə partiya funksionerləri yüksək vəzifələrə təyinat aldılar...

Qonşu Türkiyədə meydana çıxan "nurçu" məsələsi isə hakimiyyətdə onsuz da zəif təmsil olunan gəncliyin üzərinə bir az da şübhə kölgəsi sərdi. İndi bir adamdan söhbət gedəndə dərhal qayıdırlar ki, "O, nurçu deyil ki?"...

Elə indi baş verən proseslərdə də mühafizəkar detalları sezməmək qeyri-mümkündür, Qərbin başının Ukrayna və Yaxın Şərq məsələlərinə qarışdığı və Azərbaycanla Ermənistana "Siz Allah, heç olmasa, sakit durun, görək, neyləyirik?!" deyilən vaxtda Rusiyadan mənəvi dəstək alan mühafizəkarlar bir qədər də "vintləri" bərkitmək fikrinə düşüblər...

Bərkidəcəklərmi? Təbii. Amma qısa bir müddətə. Bu müddət beş il də çəkə bilər, hətta on il də olar, amma əbədi ola bilməz. Ona görə ki, zamanın səmt küləyi də şıltaqdır, o, Xəzri deyil, yalnız bir istiqamətdə əsmir...

**Bəzən o, istiqamətini dəyişir. Özü də kəskin tərzdə dəyişir...**



# 7 uşaq anasının şikayəti müzakirələrə yol açdı

## Mütəxəssislər Azərbaycanda çoxuşaqlılığın psixoloji, iqtisadi aspektlərinə, maarifçilik amilinə diqqət çəkdilər; "doğulan uşaq arzuolunan olmalıdır..."; dini ekspert: "İslamda insanın kasıb olması səbəbindən evlənməməsi günah sayılır..."

**Bir neçə gün öncə sizə, 24 kvadratmetrlik, bir otaqlı evdə yaşayan 7 uşaqlı ailə haqqında məlumat vermişdik. Ötən gün isə evi olmadığı üçün iki uşaqla məscidə sığınan ailənin həyatını təqdim etdik. Bu həyat hekayətləri ailələrin maddi imkanlarının zəif olması ilə bağlı olsa da, cəmiyyətdə daha çox imkansız ailələrin niyə çox uşaq dünyaya gətirməsi müzakirə olundu. Məlum olduğu kimi, çoxuşaqlı ailələrə ən çox kənd yerlərində rast gəlinir.**

Çünki burada daha çox uşaq daha çox işçi qüvvəsi və daha çox gəlir deməkdir. Kənd yerlərində azyaşlıların əməyindən çobanlıqdan tutmuş, bağbanlığa qədər hər bir sahədə istifadə olunur. Yəni uşaq öz çörəyini özü qazanır.

Şəhərdə isə vəziyyət fərqlidir. Xüsusən paytaxt Bakıda uşağın dünyaya gəlməsindən başlamış, təhsilinə qədər hər şey özü ağırlığında pulla ölçülür. Üstəlik, şəhərdə uşaqlar ən tez 18 yaşından sonra ailəyə qazanc gətirə bilər. Bəs belə bir halda, şəhərdə yaşayan imkansız ailələr niyə çox uşaq dünyaya gətirməyə meyllidir? Adını çəkdiyimiz reportaj ətrafında yaranan "imkanı olmayan ailə niyə yeddi övlad dünyaya gətirir" sualı ətrafında biz də müxtəlif sahələrin mütəxəssisləri ilə müzakirə apardıq.

### Dövlət Komitəsi: "Bu cahillikdir..."

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova** musavat.com-a açıqlamasında bu kimi halları cahillik adlandırıb, gəncləri ailə qurarkən daha çox düşünməyə çağırıb: "İlk növbədə maarifləndirmə işləri aparılmalıdır. Əgər bugünkü ictimai vəziyyəti, insanların sosial durumunu, bu haqda ölkə qanunvericiliyinin tələblərini, tibbi baxımdan nəticələrini insanlara izah etməsən, onlara öyrətməsən, elə biləcəklər ki, yalnız ailə qurmaq, uşaq dünyaya gətirmək üçün həyata gəliblər. Əksər gənclər evi, peşəsi, ailə saxlamaq üçün maddi imkanları olmadan ailə qururlar və başlayırlar övladlar dünyaya gətirməyə. Bunun adı cahillikdir. Ona görə də bu istiqamətdə biz insanlarla işləməliyik, maarifləndirmə tədbirləri aparmalıyıq".

**S.Qəhrəmanovanın sözlərinə görə, Komitə son zamanlar bu istiqamətdə bir çox layihələr həyata keçirib:** "Bizim bu istiqamətdə bir layihəmiz də var, yaşlı nəslin nümayəndələrinin təcrübəsinin öyrənilməsinə yönəlib. Bölgələrdə kənd camaatı ilə görüşürük. Görüşdə gənc ailələr də olur, uzunömürlü ailələr də. Uzun müddət bir yerdə xoşbəxt yaşamış ailələrin təcrübəsini gənclərə örnək göstəririk ki, onlar necə ailə qurublar, necə onu qoruyub saxlayıblar, necə gözəl övladlar yetişdiriblər. Çalışırıq ki, bugünkü gənclik onların təcrübəsindən faydalansın və düşünülmüş şəkildə ailə qursun" .

**Sədaqət Qəhrəmanova deyib ki, nəinki Komitə, QHT-lər də bu layihələrə dəstək verməlidir ki, insanlar maariflənsin, düşünülmüş şəkildə ailə qursunlar:** "Gərək doğulan hər bir uşaq arzu olunan olsun. Övlad o zaman arzu olunan olur ki, valideyn bu uşağı saxlamağa qadir olduğuna inanır. Buna görə də, ailə düşünülmüş şəkildə qurulmalı, təməli möhkəm olmalıdır".

### Millət vəkili: "Çoxuşaqlı ailələr azalır"

**Milli Məclisin Sosial Siyasət Komitəsinin üzvü, deputat Musa Quliyev** isə bildirib ki, ailə planlaşdırılması bir mədəniyyətdir və maarifləndirmə yolu ilə cəmiyyətdə təbliğ olunmalıdır: "Hər kəs başa düşməlidir ki, uşağı dünyaya gətirməklə iş bitmir. Daha məsuliyyətli iş onu xoşbəxt, sağlam, təhsilli, tərbiyəli böyütməkdir".

**Deputat qeyd edib ki, son illərdə ölkəmizdə çoxuşaqlı ailələrin sayı azalmağa doğru gedir:** "Təxminən 10 min ailə var ki, onların uşaqlarının sayı 6-dan çoxdur. Ancaq hər halda ailələr öz imkanlarını nəzərə almalıdırlar. Eyni zamanda bu cür ailələrə dövlət tərəfindən də müəyyən yardımlar göstərilir, uşaqların doğulmasına görə birdəfəlik müavinət, əgər işləyən ata və ana bir yaşına qədər uşağa baxırsa, aylıq müavinət verilir. Ailənin gəlirləri yaşayış minimumundan aşağı olduqda isə, onlara ünvanlı sosial yardım verilir. Qanunvericilik icazə verir ki, həmin ailələr yaşadıqları rayonun icra hakimiyyəti orqanlarına və bələdiyyələrə müraciət etsinlər, onlardan da aylıq və ya birdəfəlik müavinət alsınlar" .

**Lakin M.Quliyevə görə, bütün bu deyilənlərlə yanaşı ailə planlaşdırılması, neçə uşağın, neçə ildən bir doğulması ailənin öz müstəsna hüququdur, ona heç kim qarışa bilməz:** "Hazırda "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması haqqında" qanun layihəsi hazırlayırıq. Ancaq orada bir neçə mübahisəli məsələ olduğuna görə qanun hələ də qəbul olunmayıb. Dövlət birmənalı olaraq yeni doğulan uşaqların sayının çox olmasında maraqlıdır. Hazırda doğulan uşaqların sayında 10% artım var. Bu mənada təxminən 10-15 ildən sonra Azərbaycan əhalisinin sayı bütövlükdə Qafqaz əhalisinin sayından çox olacaq. Ancaq bütün dünyada proses çoxuşaqlı ailələrin sayının azalması istiqamətində gedir".

***

Bəs görəsən, ailə planlaşdırılması məsələsinə İslam dinində münasibət necədir? Ailə qurmağın və övlad dünyaya gətirməyin maddi durumla tənzimlənməsi məsələsi haqda din nə deyir? **"Yeni müsavat" qəzetinin dini yazarı Kənan Rövşənoğlu** deyir ki, İslam dini hər zaman insanları evlənməyə və övlad sahibi olmağa təşviq edir: "Quran-Kərimdə Allah buyurur: "(Ey möminlər!) Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh (yaxud evlənməyə qabil) kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər. Allah (lütfü, mərhəmətilə) genişdir, (hər şeyi) biləndir! Aranızdakı subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və cariyələrinizlə evləndirin!". Bu ayəyə əsasən İslam dinində insanın kasıb olması səbəbindən evlənməməsi, övlad sahibi olmaq istəməməsi günah sayılır, yəni Allaha şərik qoşmaq, Onun vədinə inamsızlıq kimi qəbul olunur".

**K.Rövşənoğlu deyir ki, təkcə Qurani- Kərimdə deyil, peyğəmbərimizin hədislərində də çoxuşaqlılıq bəyənilir və təqdir olunur:** "Həzrət Məhəmməd Peyğəmbər (s.ə.s) deyir: "Evlənən şəxs dininin yarısını hifz etmişdir. Evlənin! Çünki mən digər ümmətlər qarşısında sizin sayınızın çox olması ilə fəxr edəcəm". Eyni zamanda İslam hökmləri övlad sahibi olan valideynlərə savab verildiyini qeyd edir. Ayə və hədislərdən də göründüyü kimi, İslam dini ailə qurmağa, çoxlu sayda övlad sahibi olmağa təşviq edir, bunu etməyənlərin imanının zəif olduğunu qeyd edir. Məhz bu səbəbdən müsəlmanlar arasında doğum, insan artımı həmişə böyük olub. Ancaq təbii ki, bu məsələdə valideynlərin vəzifəsi yalnız övlad dünyaya gətirmək deyil, həm də onları yetişdirməkdən ibarətdir. Bu barədə hədislərdə valideynin övlad qarşısında vəzifələri, ona yaxşı ad verməsi, sənət öyrətməsi kimi öhdəlikləri də qeyd olunur. Bu mənada kamil həyat proqramı olan İslam insanlara ailə qurmaq və ya övlad dünyaya gətirməklə bağlı qadağa qoymur".

**Göründüyü kimi, məsələdə baxışlar fərqlidir. Necə nəticə çıxarmaq və nə qərar vermək isə, hər bir insanın öz hüququ və seçim haqqıdır.**

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 203 (5912) 14 avqust 2014

**1987**-ci il mayın 28-də "Qızıl Meydan"a alman təyyarəsinin enməsi SSRİ-ni silkələdi. Dünyanın dörd yanında heyrətdən donub qalanlar çox oldu. 18 yaşlı alman Matius Rust dördyerlik sadə bir idman təyyarəsi ilə 7 saatlıq uçuşdan sonra Moskvaya enmişdi. "Qızıl Meydan"da insanların əhatəsinə düşən gənc son dərəcə isti qarşılandı. Moskva milisi 1 saat sonra özünü hadisə yerinə yetirənə qədər o, onlarla avtoqraf paylamışdı...

# Amerikada qaldırılan ağ bayrağın sirri açıldı

## "Qızıl Meydan"ı fəth etmiş almanlar Bruklin körpüsünü də ələ keçirdi

SSRİ kimi dəmir sərhədlərə malik dövlətin paytaxtının lap mərkəzinə icazəsiz uçub gəlməyin mümkünlüyü kimsənin ağlına belə gələ bilmirdi. 1968-ci il iyunun 1-də Hamburq yaxınlığında Veder şəhərində anadan olmuş gənc bu hərəkəti ilə sanki dünyanı bir daha inandırdı ki, SSRİ düşünüldüyü qədər də möhtəşəm deyil. Maraqlıdır ki, bu unikal hadisə may ayının 28-də - Sovet sərhədçilərinin peşə bayramı günü baş vermişdi.

**O vaxt sovet vətəndaşları almanın törətdiyi bu aksiyanı xarici xüsusi xidmət orqanlarının əməliyyatı hesab edirdilər. Bəlkə də belə düşünənlər haqlı idi... Amma almanlar arasında belə macəralara meylli olanlar çoxdur.**

"The New York Times" qəzeti sonuncu sayında macara axtaran iki almanın Amerikada yaratdığı həyəcandan söhbət açır. Bildirilir ki, nəhayət, müəmmanın sirri açıldı. Müəmma isə ondan ibarətdir ki, qoşa qülləli Bruklin körpüsü (Brooklyn Bridge) üzərində iki ədəd ağ bayraq dalğalanırdı. Orada olmalı olan Amerikanın dövlət bayraqları isə yoxa çıxmışdı. Ən pisi isə o idi ki, ağ bayraqların oraya kimlər tərəfindən və hansı məqsədlə sancıldığı kimsəyə bəlli deyildi.

**Söhbətin nədən getdiyini aydın təsəvvür etmək üçün körpü haqqında statistik məlumatlara ötəri nəzər salaq. Bruklin körpüsü Nyu-Yorkda salınmış ən qədim asma körpülərdəndir.**

İst River çayının üzərindən keçərək, şəhərin Manhetten və Bruklin ərazilərini birləşdirir. Tikildiyi dövrdə Bruklin körpüsü dünyanın ən böyük körpüsü idi. Bu körpü o dövrdə mövcud olan bütün körpüləri uzunluğu və eninə görə kölgədə qoymuşdu. Salındıqdan sonra o, tezliklə Nyu-York üçün əzəmət rəmzinə çevrilərək "gözəl həyatı" simvolizə edirdi.

Bruklin körpüsü alman əsilli arxitektor Cohn Avqust Röbling tərəfindən layihələndirilmişdi. Tikintiyə başlayandan az sonra bir qəza nəticəsində Röbling xəsarət alır və üç həftə sonra vəfat edir. Bundan sonra layihənin rəhbərliyini onun oğlu, mühəndis Vaşinqton Röbling davam etdirir. O, atasının 1867-ci ildə başladığı körpünü tikib başa çatdırır. Körpünün uzunluğu 1,15 km, eni isə 486 m-dir. Bruklin körpüsü o dövrdə dünyada polad məftillərdən hazırlanmış ən böyük asma körpü idi.

**"The New York Times" qəzeti yazır ki, ağ bayraqlar şəhər sakinləri və turistlər arasında ciddi maraqla qarşılandı. Hər kəs bu mənzərəni lentə almağla məşğul idi. Ancaq polis komissarı Vilyam Bratton bayrağı sevinclə qarşılayanlardan fərqli olaraq son dərəcə narahat idi: "Mən bu olaydan dolayı özümü o qədər də xoşbəxt hiss etmirəm".**

Sirli olayın Don Braun tərəfindən 2003-cü ildə sirli detektiv janrında yazmış olduğu "Da Vinçi şifrəsi" ("The Da Vinci Code") romanı kimi müəmmalarla dolu olduğu söylənilirdi. Bütün Amerikanı şayiələr başına götürmüşdü.

Və bu hadisədən az sonra Almaniyadan olan 37 yaşlı Mişa Laynkauf və 35 yaşlı Matihias Vermke ortaya çıxıb bəyan edirlər ki, bayraqları onlar o yüksəkliyə taxıblar. Və bunun terrorla heç bir əlaqəsi yoxdur. Onlar sadəcə xatırlatmaq istəyiblər ki, bu körpünün əsası alman mühəndis Cohn Avqust Röbling tərəfindən qoyulub. O, 1869-cu il, iyulun 22-də dünyasını dəyişib. Məhz həmin gün körpünün üzərində ehtiram əlaməti bayraqlar dalğalanıb.



**İncəsənət adamları olan almanlar dediklərinin sübutu kimi video və foto materialları ortaya qoyublar.**

Nyu York şəhər polisi isə bu hadisədən dolayı hələ də pərtliyini unuda bilmir. Və onlar rəsmən bəyan ediblər ki, istintaqın gedişində irəliləyişlər var, ola bilər ki, tezliklə həbslər həyata keçirilsin...

**Matihias Vermke bildirib ki, onların hərəkətində anti-Amerka mövqeyi axtarmağa dəyməz. Mişa Laynkauf da əlavə edib ki, onlar polisi pis vəziyyətdə qoymaq istəməyiblər.**

Qəzet xatırladır ki, ağ bayraqlar körpüyə iyulun 22-də səhər saat 3-5 arası taxılıb. Polis təhlükəsizlik kameralarını yoxlasa da bayrağı taxanlarla bağlı heç bir məlumat əldə edə bilməyib.

Almanlar bildiriblər ki, bayraqları özləri hazırlayıblar. Bayrağı iki həftəyə əllə tikiblər, iki növ ağ parçadan istifadə ediblər. Hazırlanan bayraq Amerikanın dövlət bayrağının ölçüsündə olub.

Mişa Laynkauf deyib ki, onlar körpünün üzərində olan Amerika dövlət bayraqların ağ bayraqlarla əvəz edəndə Birləşmiş Ştatların Bayraq Məcəlləsinə uyğun hərəkət ediblər. "Biz bayraqla müvafiq qaydada davrandıq, söz veririk ki, həmin bayraqları tezliklə qaytaracağıq", - Mişa Laynkauf deyib. Almanlar onu da vurğulayıblar ki, bu hadisə geniş rezonans doğurduğundan onlar nə etmək lazım olduğunu kəsdirə bilməyiblər.

Qəzet yazır ki, almanlar 2007-ci ildə də Bruklin körpüsündə olublar. Və bu ideya məhz o zaman onların ağlına gəlib. Onlar bu ideyanın poetik olduğunu söyləyiblər, deyiblər ki, onların düşüncəsinə görə bu olay kütləni incəsənətə yaxınlaşdırmalı idi...

Nyu York polisi isə bir daha bəyan edib ki, onlar bu işi zarafat və ya incəsənət növü kimi qəbul etməkdən uzaqdırlar.

Matihias Vermke deyib ki, atasının ölümündən sonra onun işini davam etdirən Vaşinqton Röbling 1926-cı ilin iyulun 21-də dünyasını dəyişib. Ona görə də Bruklin körpüsünün hər bir qülləsindən ağ bayraq asılıb, bir bayraq atanın, bir bayraq da oğulun şərəfinə.

**Məqalədən aydın hiss olunur ki, macara axtaran almanlar "poetik" layihələrinə görə tezliklə həbs olunacaqlar. "Sem Dayı" belə zarafatları sevmir.**

Düzdür, 18 yaşlında "Qızıl Meydan"a təyyarə endirmiş Matius Rust da cəzasını almışdı. Amma onun adı tarixin yaddaşında ilişib qalıb. Yəqin ki, incəsənəti kütləyə yaxınlaşdırmaq istəyən "ağ bayraq qaldıranlar" da məhkəmə qarşısında dayanacaqlar. Şübhəsiz ki, onların da adı tarixin yaddaşından silinməyəcək. Amma burda başqa bir nüans da var. Matius Rustun təyyarə olayı SSRİ-nin dağılmasının ilk siqnalı oldu. Ağ bayraq olayı nəyin əlaməti sayılmalıdır?

❑ **Elbəyi HƏSƏNLİ (Sürix)**

**P.S** *Deyilənə görə ABŞ-ın ilk bayrağını Corc Vaşinqtonun xahişi ilə Betsi Ross hazırlayıb.*

# Rusiyaya qarşı sanksiyaların Azərbaycana faydası və zərəri olacaq

## İqtisadçı-ekspertə görə, kənd təsərrüfatı mallarının ixracatı artacaq, eyni zamanda daxili bazarda Rusiya mallarında ucuzlaşma, yerli məhsullarda isə bahalaşma olacaq...

**Qərb ölkələrinin Rusiyaya qarşı və ardınca Rusiyanın Avropa ölkələrinə qarşı ərzaq sanksiyası bir sıra ölkələrə faydalı olacaq. Artıq Türkiyə iqtisadçıları Rusiya bazarında yeri boşalan Avropa məhsullarının Türkiyə mallarını doldurması və bundan əldə olunacaq gəlirləri hesablayır. Eyni zamanda bir sıra müşahidəçilərə görə, qarşılıqlı sanksiyalar Rusiyaya qonşu ölkələrə, o cümlədən Azərbaycana iqtisadi dividentlər gətirəcək.**

**Sabiq dövlət müşaviri Vəfa Quluzadə** "Yeni Müsavat"a açıqlamasında sanksiyalardan sonra Rusiyanın Azərbaycan iqtisadiyyatına ehtiyacı olacağını deyib. **Sitat:** "İndi Azərbaycan Rusiya üçün olduqca maraqlıdır. Çünki bizdə həm neft-qaz var, həm də ölkəyə güclü maliyyə axını. Üstəlik, Azərbaycanda yüngül, ərzaq sənayeləri, meyvə-tərəvəz istehsalı mövcuddur. Hazırda Qərb Rusiyaya qarşı sanksiyalar tətbiq edir, Rusiya özü də Qərb məhsullarından imtina qərarı verib. Amma Rusiya bu məhsulları haradansa almalıdır. O, Azərbaycanı özü üçün qapı kimi görmək istəyir. Azərbaycanın banklarından maliyyə sanksiyalarını dəlmək üçün istifadə etmək, eləcə də digər məsələlərlə bağlı, həmçinin Azərbaycandan investisiyalar cəlb etmək istəyir. Məsələn, Azərbaycan Rusiyaya investisiya qoya bilər, bu bizim xeyirimizədir".

Yeri gəlmişkən, artıq sanksiyalar Rusiya bazarına öz təsirini göstərir. Son iki gündə Rusiyada ərzaq məhsullarının azalmasını göstərən fotolar sürətlə yayılır. aznews.az-ın yerli mediaya istinadən verdiyi məlumata görə, R.Adaqamov Moskvanın əsas ticarət obyektlərindən olan "Slavyanskiy bulvar"dakı ərzaq mağazalarında çəkiliş aparıb. Bloqqer paylaşdığı xəbərdə şəkilatlılarda bildirib ki, Moskva Avropa İttifaqının Rusiyaya tətbiq etdiyi embarqolardan sonra paytaxt mağazalarında keyfiyyətli - brend ərzaq məhsullarına rast gəlmək mümkün deyil.

**İqtisadçı-ekspert Vüqar Bayramov** "Yeni Müsavat"a açıqlamasında sanksiyaların Azərbaycan iqtisadiyyatına iki istiqamətdən təsir edəcəyini deyib: "Birincisi, kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olan Azərbaycan iş adamları Rusiya bazarlarına ixracatı artıracaq. Çünki Avropa Birliyinin Rusiya bazarından çəkilməsi bazarda müəyyən boşluq yaradacaq. Elə ərzaq məhsulları var ki, onların ödənilməsində Avropa Birliyi ölkələrinin payı yüksək idi. Rusiyada istehlak olunan süd məhsullarının 70 faizi Avropa ölkələrindən idxal olunur. Digər kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsində də Avropa Birliyi Rusiya bazarında əsas iştirakçılardan birincisi idi. Sözsüz ki, AB-nin çəkilməsi bazarda boşluq yaradır. Belə vəziyyətdə Azərbaycan iş adamlarının, fermerlərin Rusiya bazarında sanksiyalar səbəbindən yaranacaq boşluğu tutacağı gözlənilir. Azərbaycanın Rusiya kənd təsərrüfatı bazarına çıxış imkanları kifayət qədər yüksəkdir. Eyni zamanda Azərbaycan fermerləri Rusiya bazarlarında müqayisəli üstünlüyə malik olduqları üçün, yəni Azərbaycan üçün Rusiya bazarları ənənəvi bazar olduğu üçün ölkəmizdən ixracatın yüksəlməsinə gətirib çıxaracağı güman olunur".



Vüqar Bayramov

**Bundan başqa ekspertə görə, sanksiyalar eyni zamanda Azərbaycan bazarına gətirilən Avropa Birliyi ölkələrinin məhsullarının həcmini artıracaq:** "Çünki Rusiya bazarından çıxan AB ölkələrinin böyük bir qismi Şərqi Avropa ölkələridir və onlar artıq Rusiya ətrafındakı bazarlara daxil olmağa üstünlük verəcəklər. Həmin bazarlardan biri də Azərbaycandır. Bu baxımdan Azərbaycan bazarında Avropa ölkələrində istehsal olunan malların qiymətlərinin müəyyən qədər azalmasına gətirib çıxara bilər".

**Ekspertin qənaətincə, Rusiya banklarına tətbiq olunan sanksiyaların Azərbaycanın bank sektoruna müsbət təsir göstərə bilər. Belə ki, sanksiyalar tətbiq olunduqdan sonra Rusiya şirkətlərinin bir qismi digər MDB ölkələrinin bankları vasitəsilə köçürmələr etməyə çalışacaqlar:** "Nəzərə alsaq ki, Rusiyanın iri şirkətlərinin digər MDB ölkələrində filial və nümayəndəlikləri var. Bu da təbii ki, Azərbaycan banklarının Rusiyaya tətbiq olunan sanksiyalardan faydalanmasına imkan verəcək. Rusiyaya tətbiq olunan sanksiyalardan Azərbaycanın faydalanmaq imkanları var, o cümlədən nəzərə alsaq ki, sanksiyalardan sonra Rusiya rublunun məzənnəsində azalmalar baş verib və bu Rusiyadan ixrac olunan məhsulların maya dəyərinin kiçilməsinə səbəb olub. Güman olunur ki, bu, Rusiyadan Azərbaycan gətirilən məhsulların, xüsusən də qeyri-ərzaq mallarının qiymətlərinin aşağı düşməsinə səbəb olacaq. Məsələn, əvvəllər Rusiyada 30 rubla istehsal olunan məhsulun qiyməti 1 dollar idisə, hazırda 80 sentə yaxındır. Bu isə Rusiyada istehsal olunan məhsulun dollarla ifadəsində maya dəyərinin azalmasına və qiymətinin ucuzlaşmasına səbəb olacaq. Bu səbəbdən düşünmək olar ki, yaxın zamanlarda Azərbaycan bazarında qeyri-ərzaq məhsullarının, o cümlədən tikinti materiallarının qiymətlərində ucuzlaşma olacaq".

**Ancaq eyni zamanda bu vəziyyət daxili bazarda da müəyyən qədər bahalaşmaya gətirib çıxaracaq. V.Bayramov deyir ki, Rusiya bazarına daha geniş bazarın açılması yerli kənd təsərrüfatı məhsulların şimala daşınmasına səbəb olacaq ki, son nəticədə daxili bazarda bahalaşmaya səbəb olacaq:** "Çünki indiyədək Azərbaycanda yerli kənd təsərrüfatı məhsullarının qiymətlərinin aşağı olmasının səbəbləri ondan ibarət idi ki, onların ixrac imkanları məhduddur və istehsal olunan məhsulların böyük hissəsi ölkə bazarında qalır. Bu baxımdan hazırda həmin məhsulların, xüsusən də tərəvəz məhsullarının qiymətləri xeyli aşağıdır. Rusiya bazarına açılım Azərbaycanda yerli məhsulların bazarda azalmasına və müəyyən qədər bahalaşmasına gətirib çıxara bilər. Çünki fermerlər daha yüksək qiymətlərin mövcud olduğu Rusiya bazarlarına daxil olmaqda maraqlı olacaqlar".

❑ **KƏNAN**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

- *Kiyev Dövlət Texniki Universiteti*
- *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
- *Kremençuk Dövlət Universiteti*
- *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
- *Kiyev Dövlət Dəniz Akademiyası*
- *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
- *Tbilisi Dövlət Tibb Universiteti*
- *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
- *Minsk Dövlət Universiteti*
- *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
- *Qrodno Dövlət Universiteti*
- *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
- *Volqoqrad Dövlət Aqrar Universiteti.*
- *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**

**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Ailələr tikinti şirkətinə qarşı üsyan edir

## Daha bir sökүntü və daha bir narazılıq, etiraz...

**Nizami rayonu Qara Qarayev küçəsi Tofiq Abbasov 38-A ünvanında yerləşən iki mərtəbəli yaşayış binasının sakinləri etiraz edir. Onların etirazlarının səbəbi həmin binanın "İmperial-AS" MTK şirkəti tərəfindən sökülməsinin planlaşdırılması və onlara təklif edilən kompensasiyanın məbləğinin az olmasıdır.**

Şikayətlə bağlı adı çəkilən ünvanda olduq. Diqqətimizi ilk olaraq çəkən məqam ərazidəki ağacların kəsilməsi oldu. Şirkət tikinti zamanı bir çox ağacları kəsib, binanın bir çox hissəsinə zərər yetirib.







Şikayətçi sakinlərlə görüşdük. Öyrəndik ki, bu binada 9 ailə yaşayıb. Onlardan 7 ailə köçürülüb. Hazırda binada iki ailə qalıb.

**Şikayətçilərdən Fazilə Quliyeva** deyir ki, şirkətin təklifi onları qane etmir: "Bir müddət öncə "İmperial-AS" MTK şirkəti bizim binanın arxasında tikinti işlərinə başladı. 3 ay öncə isə bizim binanı sökmək qərarına gəldilər. Bu binada 9 ailə yaşayırdı. Onlardan 7-si ilə razılaşdılar. Bir yolla başlarını aldatdılar. Qaldıq biz iki ailə. Biz razılaşmadıq. Çünki təklif edilən kompensasiyanın məbləği azdır. Biz qaçqın ailəsiyik. Düşmən bizi doğma el-obamızdan çıxardıb. İndi də zorla buradan çıxarmaq istəyirlər. Mən 92-ci ildən bu evdə yaşayıram. Harasa çıxıb getmək fikrim olmayıb. İndi deyirlər ki, evinizi bizə satın. Üstəlik təklif etdikləri şərtlər bizə sərf etmir".







**F.Quliyeva onu da bildirdi ki, şərtlər onlara sərf edənə qədər evlərini satmaq fikirləri yoxdur:** "Mən oğluma bu evdə toy eləmişəm. Evimi yenicə təmir etmişəm. Mənim evimi satmaq fikrim olmayıb. Onlar gəlib təklif ediblər ki, evimi onlara satım. Ona görə də, mənə elə bir şərtlər təklif etməlidirlər ki, bu bizə sərf eləsin. Mənim evimə 80 min manat təklif edirlər. Bu pula mən harada ev ala bilərəm? Üstəlik indi metronun düz yanında yaşayıram. İşim də evimə yaxındır. Bizə sərf edən təklif irəli sürməsələr, evimizi satan deyilik".







**Məmməd Quliyev isə bildirdi ki, şirkəti məhkəməyə verəcəklər:** "Başa düşürəm ki, digər evləri alıblar. Amma biz buradan çıxmamış onlar bu binaya toxuna bilməzlər. Bu qanunla da belədir. Amma buna baxmayaraq, artıq qonşu evləri, balkonları sökүblər. Ən əsası binanın tavanını sökүblər. Yağış yağan kimi evimizə su tökülür. Pillləkənlərin üstü mismarla, taxta parçaları ilə doludur. Gedib-gəlmək olmur. Bütün bunlar bizə təzyiqdir ki, bezək və evimizi bunlara sataq. Özlərini yormasınlar. Haqqımızı tapdalaya bilməyəcəklər. Hara lazımdırsa şikayət etmişik. Vəkilimiz də var, məhkəməyə də müraciət edəcəyik".

**Sevil Həsənova isə deyir ki, onları evdən çıxarmaq üçün şirkət tərəfindən təzyiqlər edilir:** "Artıq yeni üsullara keçiblər. Keçən gün evimizə polis gəlmişdi. Kimsə onlara şikayət edib ki, guya bizdə səs-küydür, dava-dalaş gedir. Gəldi gördü ki, hər şey normaldır. Bu da onların işidir. Bizə bir yolla təzyiq göstərmək istəyirlər. Bizim evə 60 min manat təklif edirlər. Bu pulla o özü haradasa ev ala bilər? Bu mümkün deyil. Verdikləri pulun yarısı evin təmirinə xərclənən məbləğdir. Bu bizə heç cür sərf etmir. Tikdikləri binada ev təklif edirlər. Verəcəkləri evin hansı şəraitdə olacağı artıq məlumdur".

**Sakinlərin sözlərinə görə, binanı "İmperial-AS" şirkəti yararsız hala salıb:** "Bizə dedilər ki, "İmperial-AS" bizim ərazini alıb. Sakinlərlə də görüşüb bazar qiymətlərinə uyğun kompensasiya verəcəklər. Bir müddət keçəndən sonra məlum oldu ki, tikinti şirkəti bizim binanı "yararsız haldadır" adı ilə sənədləşdirib. Halbuki bu bina sovet vaxtı tikilib və çox möhkəm binadır. İkincisi, binanın yararsız olması ilə bağlı heç vaxt ekspertiza əraziyə gəlməyib, yoxlama aparmayıb. Bakıda zəlzələ olanda biz mənzilimizdə hiss etmədik. Çünki möhkəm tikilib. Yararsız halda deyildi, ancaq indi yararsız hala salıblar".

**Məsələ ilə bağlı adı çəkilən "İmperial-AS" MTK şirkətində olduq. Bizə özünü Rasim kimi təqdim edən amma əslində adı Arif Mustafayev olan şirkətin səlahiyyətli nümayəndəsi suallarımızı cavablandırdı.**

A.Mustafayev bildirdi ki, onlar həmin iki mənzil üçün çox yaxşı şərtlər təklif ediblər: "Bu bina yararsız binadır. BŞİH tərəfindən bizə bu binanın sökülməsi və yerində çoxmərtəbəli binaların tikilməsi üçün icazə verilib. Biz də qayalara uyğun olaraq hərəkət etmişik. Həmin mənzillərin sahiblərinə təklif etmişik ki, mənzillərini bizə satsınlar. Biz onlara iki il ərzində kirayə qalmaqları üçün aylıq 300 manat ödəyək və yeni binada mənzillər verək. Həmin mənzillər indiki evlərindən daha böyük olacaq. Amma razılaşmırlar".

**❑ Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

**Elan**

**Təcili olaraq, başqa ölkəyə köçməyimiz səbəbinə görə, Qəbələdə 60 sot ərazisi olan, dağın lap ətəyində yerləşən, kvadrat sahəsi olan, suyu, işığı, qazı olan, meyvə verən şabalıd, qoz, fındıq, qızıl əhmədi alması və s. Meyvə ağacları olsn gözəl bir bağ təcili olarac çox münasib qiymətə satılır. Ciddi fikri olmayanlar zəng vurmasınlar.**

**Əlaqə Tel: (050) 371-01-60; (070) 335-90-15**



**Bir neçə gün öncə tanınmış Hollivud aktyoru Robin Uilyamsın intihar xəbəri dünyanı şoka saldı. Artıq cəsədi aşkarlayanlar onun özünü asdığını təsdiqləyiblər. Ömrünün son günlərinə yaxın aktyorun depressiyadan müalicə olunduğu da məlum olub. Sonuncu dəfə Robini sağ görən onun həyat yoldaşıdır. Səhər saat 10:30-da ərini yatmış bilən xanım evi tərk edib, qayıdanda isə yalnız cəsədi ilə rastlaşıb.**



# Dünyadakı ulduz intiharları

## Öz həyatına qıyan məşhurların siyahısında filosof da var, yazıçı da, aktyor da; hansı qəbildən olan insanlar suisidə meylli olur?..

Azərbaycan kimi ölkələrdə insanların imkansızlıqdan, maddi problemlərin, qayğıların çoxluğundan əziyyət çəkdiyi üçün intihara əl atdığını nəzərə alanda ulduz intiharları heç də anlaşılan görülmür. "Onun nə dərdi ola bilər ki" tipli sual insanları hər zaman düşündürür. Pul-para, şöhrət, üzünə taybatay açılan qapılar, uğurlu karyera, üstəgəl, normal ailə həyatı. Kəsəsi, bir insanın həyatdan almaq istədiyi hər şeyə sahib olduğu halda, ölümün qapılarını öz əlləri ilə aralamağın məntiqi xeyli düşündürücüdür.

Səbəblərə keçməzdən əvvəl xatırladaq ki, dünyada intihar yoluna əl atan məşhurlar az olmayıb. Tarixin tozlu qatlarını təmizləyəndə xeyli belə simalarla qarşılaşmaq mümkündür. Gözəl əsərlərin müəllifi olan yazıçılar, dünyanı idarə etməyə iddialı siyasətçilər, füsunkar səsli müğənnilər. Siyahıda kimlər yoxdur... Şöhrətin zirvəsində bu dünya ilə vidalaşmanın səbəbləri nələrdir? "Yeni Müsavat" sizlər üçün onların siyahısını hazırlayıb.

**Başlayaq Cek Londondan**. Ölməz əsərlərin müəllifi olan ingilis yazıçısı intihar edən şəxsiyyətlərdəndir. Onun intiharına səbəb olan əsas amillər içki idi. İçkini atmağı asan hesab edən yazıçı sonradan bunun mümkünsüz olduğunu anladı. Gənc yaşlarında morfi iynəsini böyük dozada vurmaqla öz həyatına son qoydu. Bir çox mənbələrdə isə qeyd edilir ki, C.London 1916-cı ildə yuxu zamanı ölüb.

**Adolf Hitler** - 1945-ci il aprel ayının 30-da Berlinin ələ keçəcəyinə əmin olandan sonra qaldığı sığınacaqda intihar edib. O, Sovet ordusu tərəfindən yaxalanıb rəzil olmamaq üçün ağzından atəş açaraq özünü öldürüb.

**Edqar Allan Po** ABŞ-ın ilk qısa hekayələr yazan yazarıdır. Varlı insan tərəfindən oğulluğa götürülən Edqar sonradan yoxsulluğa düçar olur. 1849-cu ildə Baltimordakı xəstəxanada intihar edib. Amma onun ölümü haqda dəqiq məlumatlar yoxdur.

**Amerikalı yazıçı Ernest Heminquey** də həyatının son illərində depressiyaya qapılıb. 1960-cı ildə depressiya və ciddi əqli pozuntu diaqnozu ilə Minnesota ştatındakı Mayo klinikasına yerləşdirilmişdi. Sonradan aşkarlandığı kimi, həkimlər düzgün müalicə apara bilməyibmişlər. Nəticədə böyük ümidsizliyə qapılan yazıçı özünü ov tüfəng ilə öldürür. Maraqlıdır ki, yazıçının babası və atası da həyatlarına intiharla son qoyublar.

**O da maraqlıdır ki, yazıçının qız nəvəsi, məşhur model, aktrisa Marqaus Heminquey** də 1996-cı ildə intihar edib. Buna səbəb onun sakitləşdirici dərmanı həddən artıq dozada qəbul edərək "rahat" intihar yolu seçməsidir.

**Virginia Volf** ingilis yazarı və naşirdir. 1941-ci ildə ayağına ağır daşlar bağlayaraq dənizə hoppanaraq intihar edib.

Məşhur yunan filosofları **Pifoqor və Demokrit** özlərini aclığa məhkum edərək intihar ediblər.

**Sergey Yeseninin** ölümü haqqında verilən rəsmi məlumata görə, o, 1925-ci il dekabrın 27-dən 28-nə keçən gecə Leninqradın İAnqleter» otelində özünü asaraq intihar edib. Yesenin öz dövrünün ən böyük və səmimi şair idi.

**İstedadlı rəssam Van Qoq** - "Taxıl zəmisində qarğalar" rəsmini çəkdikdən sonra özünü başından güllə ilə vurmaqla intihar edib. O da içkidən çox istifadə edir, psixologiyasında ciddi problemlər yaşanırdı.

**İngilis pop müğənnisi Charles Haddon** isə 2010-cu ildə Belçikada təşkil olunan musiqi festivalında elektrik dirəyindən atlayaraq intihar edib.

1962-ci il avqustun 5-də dünya şöhrətli **Hollivud ulduzu Merilin Monronun** meyiti öz yatağında tapılıb. İlkin araşdırmalar onu deməyə əsas verirdi ki, o, yüksək dozada həblər qəbul edərək intihar edib. Amma bu versiyanın həqiqətə nə dərəcədə uyğun olması hələ də sirr olaraq qalır.

**Psixoloq Sigmund Freud** isə 1939-cu ildə həkimin köməyi ilə yüksək həddə morfin qəbul edərək ölüb. Buna inyeksiyasa ilə könüllü ölüm - eftanaziya da deyilir.

**Klodius Albinus** (197-ci ildə) Roma imperatoru məğlub olduqları bir müharibədən sonra özünü öldürüb.

**Salvador Allende** (1973) - Çilinin prezidenti bir müharibə zamanı tapança ilə intihar edib. Səbəb müharibənin uğursuzluqla nəticələnəcəyi ehtimalı olub.

**Kurt Cobain** (1994) Amerikalı rok musiqiçi. Tapança ilə başından vuraraq intihar edib.

### Şən insanlar intihara daha çox meyl edir

Yaxşı bəs psixoloqlar nə deyir? Onların fikrincə, ümumən gün ərzində yaşlı insanların saatlarla seriala baxmaları onlarda depressiyanın inkişafını daha da artırır. Amerikan alimləri bu riskin hər gün 3 saat seriala baxmaqla 13% artdığını söyləyirlər. Bostondakı Harvard Universitetinin nəzdində olan tibb mərkəzinin tədqiqatçıları, 50 min amerikalı xanımın sağlamlığı haqqında əlamətləri, 10 il ərzində onların həyat obrazları haqqında doldurduğu anketlər əsasında analiz ediblər. Tədqiqatçılar həmçinin, gündəlik olaraq 1 saat yarımdan az olmamaq şərti ilə, yaşlı insanların gəzməsi və ya adi fiziki məşğələləri yerinə yetirmələri depressiya riskinin 20% azaltdığını müəyyən ediblər.

Xatırladaq ki, psixoloqlar həmişə şən olan insanlar arasında intihar həddinə çatan depressiyalı xəstələrinin daha çox olduğunu söyləyirlər. Mütəxəssislər bu halı "gülərüz depressiya" adlandırırlar. Belə diaqnozlu insanlar adətən problemin olduğunu etiraf etməkdən qaçırlar və həmişə kütlədə gülərüzlü görkəmlərini saxlayırlar, evə gəldikdə isə yalnızlıqdan pərişan olurlar.

### Əsas səbəb: dünyanın bütün nemətlərini dadır, sonra depressiyaya düşürlər...

Konkret məşhurların intihar səbəblərinə gəlincə, burada da maraqlı səbəblər var. Yazının girişində qeyd etdiyimiz kimi, məşhurlar dünyanın bütün naz-nemətlərini dadmış, əksər istəklərinə çatmış şəxslərdir. Onlar üçün bir müddət sonra həyat öz mənasını itirməyə başlayır. Necə deyərlər, arzulamağa heç bir şey qalmır. Bu zaman həyatdan zövq almaq üçün narkotikə, bəzi zərərli vərdişlərə yiyələnməyə başlayırlar ki, bir müddət sonra bu da onları intiharın bir addımlığına gətirir.

Bundan başqa, məşhurluq da xəstəlik sayılır. Daim diqqət mərkəzində olmaq, sözü-söhbəti ilə insanların diqqətini çəkmək məşhurlarda zaman-zaman paranoyalarla müşayiət olunur. "Dost"larının onunla ancaq şöhrətinə, gücünə görə ünsiyyət qurduğunu düşünməsi, ətrafında onu sevənlərdən daha çox intihar edənlərin olması məşhurları ciddi depressiyaya gətirib çıxarır. Həmin şəxslər bu səbəbdən keçmiş, yəni məşhur olmadıqları zamandakı azadlıqlarının, kasıb, amma daha saf həyatlarının xiffətini çəkir. Keçmişə qayıtmaq şansı olmadığından isə bu həyatda yaşamaq onlar üçün ağır görünür və beləcə intihar yolunu seçirlər.

**Normal insanın həyatda yaşaya biləcəyi hisləri - sevgi, nifrət, həyəcan, emosiya, affekt vəziyyətləri ulduzlar daha çox yaşayır. Bir sözlə, onların "hiss baqajı" bizimkilərdən daha dolu olduğundan verdikləri emosional qərarlar da gözlənilən sayılır. Bundan başqa, intihar edənlər arasında karyerasında uğursuzluq yaşayanlar da yer tutur. Məsələn, istədiyi əsəri daha yarada bilməyən yazıçı, şöhrətini itirən aktyor, müğənni də depressiyanın bir addımlığına gəlib intihar yolu tuta bilər.**

❑ Sevinc TELMANQIZI



# Ebola virusu Azərbaycanın bir addımlığında

## Öldürücü xəstəlik Türkiyəyə kimi gəlib çatdı

**Ebola virusu Azərbaycanın bir addımlığına qədər gəlib çatıb. Ötən gün Türkiyədə bu virusun daşıyıcısı olan bir nəfər hava limanında saxlanılıb. İstanbuldakı Atatürk Hava Limanında turistlərdən birində Ebola virusu aşkar edilib. Bu barədə ötən gün Türkiyə mətbuatı həyəcan təbili çalıb. Xəstənin Nigeriya vətəndaşı olduğu bildirilir.**

Bunun ardından hava yolu ilə Nigeriyadan Türkiyəyə gələn bütün sərnişinlər tibb müəssisələrinə çatdırılıblar.

Xatırladaq ki, Afrikanın qərbində yayılan Ebola virusundan indiyədək yüzlərlə insan dünyasını dəyişib. Tər, qan, tüpürcək yolu ilə yayılan bu virusa yoluxanların müalicəsi mümkünsüzdür. Xəstəliyin simptomları qızdırma, baş ağrısı, qusma, ishal və qanaxmadır.

Ebola qurbanları ilə bağlı statistika təhlükəli həddə çatıb. Qərbi Avropada Ebola virusundan ölənlərin sayı 1013 nəfər çatıb. Son məlumatlara görə, bu ölümcül virusa yoluxanların sayı iki min nəfərə yaxındır.

Azərbaycanın Səhiyyə Nazirliyi isə məlumat yayıb ki, heç bir ölkənin, o cümlədən Azərbaycan vətəndaşlarının Ebola virusuna yoluxmadan sığortalanmayıb. Mediaya açıqlama verən Səhiyyə Nazirliyinin sanitar-epidemioloji nəzarət sektorunun müdiri Viktor Qasımov bildirib ki, hələlik Ümumdünya Səhiyyə Təşkilatı sərhədləri bağlamayıb, bu barədə qərar yoxdur: "Hər halda Azərbaycan bütün hazırlıq işlərini görüb. Bununla bağlı şübhəli hal olarsa, müvafiq tədbirlər görüləcək".

**Ancaq Ebola virusunun Azərbaycana gəlməsi üçün yetərincə, "açıq qapılar" var. Azərbaycanda təhsil alan afrikalı tələbələr sentyabrın əvvəllərində ölkəmizə axın edəcəklər.**

Artıq bir çox ölkələr bu cür önləyici tədbirlər görməyə başlayıb. Belə ki, Səudiyyə Ərəbistanının Səhiyyə Nazirliyi bu il baş tutacaq Kəbə və həcc ziyarətinə 3 ölkədən gələn müsəlmanlara qadağa qoyub. Afrika ölkələri Liviya, Qvineya və Sierra-Leone ölkələrində yayılan Ebola virusunun gətirə biləcəyi təhlükəni qabaqlamaq üçün həmin ölkələrdən gələn zəvvarların Səudiyyə Ərəbistanına girişi əngəllənib. Bundan əlavə, Səudiyyə Ərəbistanı hökuməti gömrük məntəqələrində, eləcə də hava limanlarında çalışan əməkdaşlarına virus haqqında təlimlər keçirir.

**Ölkəmizdə isə hələ ki Səhiyyə Nazirliyindən heç bir aidiyyəti quruma bu cür tövsiyələr verilməyib.**

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT

Son səhifə

N 203 (5912) 14 avqust 2014



## "Ebola"nın dərmanı tapıldı

Kanada "Ebola" virusu ilə mübarizə aparmaq üçün peyvənd hazırlayıb. Yeni dərman hazırda təcrübə mərhələsindədir. Kanadalı həkimlər peyvəndi artıq Dünya Səhiyyə Təşkilatına təklif edib. Səhiyyə naziri Rona Ambrose Dünya Səhiyyə Təşkilatının prezidenti Marqaret Çana zəng edərək yeni peyvənd barəsində məlumat verib. Ambrose hazırda əllərində "VSV-EBOV" adlı peyvənddən 1 500 ədəd olduğunu söyləyib. O bildirib ki, bunun min dənəsini Ümumdünya Səhiyyə Təşkilatına verməyə hazırdır.

"Əlimizdəki bu dərmanı təhlükəli epidemiyanın qarşısını almaq üçün təqdim etmək istəyirik. Ümid edirik faydalı olar", - deyə kanadalı nazir bildirib. Kanada Xalq Sağlamlığı Agentliyi sədrinin köməkçisi Qreqori Taylor da açıqlama verərək peyvənd barəsində danışıb. O, qeyd edib ki, peyvəndin ən yaxşı istifadə metodunu müəyyən etmək üçün təcrübə aparılır. Taylor əllərindəki peyvənd nümunəsindən 10 ədədinin test üçün Cenevrəyə göndərildiyini də söyləyib.

Xatırladaq ki, hələlik heç bir müalicə üsulu və peyvəndi olmayan "Ebola" virusu mindən çox adamın ölümünə səbəb olub. Bu virus sudan və ya havadan deyil, xəstələrin bədən mayeləri (tər, tüpürcək, qan, selik və s) yolu ilə yayılır.

# İtinə görə işdən çıxarıldı

Meksikada bir polis içkili halda itinin boğazını zəncirlə sıxıb, divara çırpdığı üçün işdən qovulub. Meksikanın Cuautitlan Izcalli şəhərində çalışan Arturo Kovalev adlı polis ona təslim edilən K-9 adlı iti tərbiyə edərkən içkinin təsiri ilə ona əziyyət verib. İti bir neçə dəfə divara çırpan A.Kovalev dostları tərəfindən izlənilib. Kovalevin hərəkətləri dostları tərəfindən izlənilib və telefonların kamerası ilə çəkilib. Video görüntülər polis şöbəsinin müdiri tərəfindən izlənildikdən sonra A.Kovalev işdən çıxarılıb.



# 7 il ərzində çəkdiyi selfilərdən video

Kanadanın Monreal şəhərinin 19 yaşlı sakini Hüqo Kornelyer 7 ildir çəkdiyi selfilərini bir araya gətirərək, möhtəşəm bir video hazırlayıb. 12 yaşından hər gün selfi şəkli çəkən yeniyetmə 2006-cı ildə bir nəfərin öz şəkillərindən ibarət videosundan təsirlənərək öz layihəsinə başlamaq qərarına gəlib. Yeniyetmə 7 il ərzində 3 minə yaxın selfi toplayıb. Getdiyi hər yerə öz kompüterini aparan yeniyetmə 2500 gün ərzində cəmi 50 gün şəkil çəkdirməyi unutduğunu deyir.

Gənc öz layihəsini əvvəlcə "Hər gün foto" adlandırsa da, sonradan selfi trendinin geniş yayılması ilə əlaqədar layihəsini "Hər gün selfi" adlandırmağa qərar verib. Layihəsinə son vermək fikrində olmayan Hüqo selfi çəkməyi ömrünün sonunadək davam etdirəcəyini bildirib.





## Film kimi soyğun

Çilinin paytaxtı Santyaqo şəhərində film kimi oğurluq hadisəsi baş verib. Belə ki, hava imanının karqo bölümündəki təyyarəyə pul daşıyan maşın 8 nəfər tərəfindən soyulub. Çili qanunlarına görə, hava limanını ərazisində silahla gəzmək qadağandır. Məhz bu səbəbdən təyyarəyə pul daşıyan təhlükəsizlik əməkdaşları silahsız olduqları üçün 8 nəfər oğru təyyarədəki 1 milyon dolları alaraq qaçıblar. Bir tək güllə belə atılmadan 1 milyon dolların oğurlanması hər kəsi şoka salıb. Oğurluqdan sonra oğrular şəhərin içində iki istiqamətdə qaçıblar. Polislər onları tapa bilməyiblər. Ölkənin Daxili İşlər Naziri Rodrigo Penalillo oğruları ən qısa müddətdə tapacaqlarını və pulları geri alacaqlarını deyib.




QOÇ - Ulduzlar fəaliyyət yönümündə passivlik vəd edir. Bu səbəbdən də diqqəti münasibətlərə, soyuqlaşmış əlaqələrin dirçəlməsinə yönəldin. Nahardan sonra mədəni istirahətə vaxt ayırın.

BUĞA - Ümumi məziyyətlərinə görə, düşərli gün hesab etmək olar. Nəzərdə tutduğunuz planları həyata keçirməkdə çətinliyiniz olmayacaq. Günün ikinci yarısında pul gözlənilir.

ƏKİZLƏR - Hansısa yeni fəaliyyətlə məşğul olmağa tələsməyin. Bunun əvəzinə hazırkı işlərinizə aludə olmağınız daha yaxşıdır. Qarşıdakı on günün planlarını indidən götür-qoy edin.

XƏRÇƏNG - Fəaliyyətinizdə mühüm irəliləyişlər gözlənilir. Bu səbəbdən də bütün mümkün variantlardan yararlanın. Yeni münasibət qurduğunuz insanlara şübhə ilə yanaşmayın. Xoflanmağa lüzum yoxdur.

ŞİR - Daha çox ehtiyatlılıq nümayiş etdirin. Xüsusən də günün birinci yarısında riskli sövdələşmələrdən, yeni təkliflərdən imtina edin. Əks cinslərinizlə tədbirli davranın.

QIZ - Maliyyə problemlərinizi aradan qaldırmaq üçün ulduzlar sizə qarşı səxavət göstərəcək. Odur ki, ümidsizliyə qapılmamalısınız. Saat 13-17 aralığında yeni təkliflər də gözlənilir.

TƏRƏZİ - Emosionallıqdan çıxıb real düşünün. Yadda saxlayın ki, indi siz nə nağıllar aləmində yaşayırsınız, nə də dünyanın sahibisiniz. Necə deyərlər, çalışıb "Ayağınızı yorğana görə uzadın".

ƏQRƏB - Hər bir məsələdə obyektiv olun. Şəxsi ambisiyalarınızı qabartmayın. Əks təqdirdə gün boyu planlaşdırdığınız işlər pozula bilər. Uzaq səfərlərinizi təxirə salın.

OXATAN - Etibarlı dostların köməyindən yararlana bilsəniz, günün ümumi mənzərəsindən razı qalacaqsınız. İşlə bağlı müəyyən passivlik gözlənilsə də, bu, müvəqqəti xarakter daşıyacaq.

OĞLAQ - İxtiyarınızda olan bu təqvimdə hansısa günaha qol qoymayın. Hər addımda Tanrını başınız üstündə hiss edin. İnsanlara yalnız yaxşılıq edin ki, düşdüyünüz böhrandan çıxasınız.

SUTÖKƏN - Boş dayanmağa lüzum yoxdur. İşıq ucu gələn bütün yollara baş vurun. Saat 12-14 arası imicinizə xələl gətirə bilən hallardan qorunun. Gün ərzində qazanmaq şansınız da var.

BALIQLAR - Qarşınızda elə bir təqvim durub ki, rastlaşdığınız hər bir detala diqqətlə yanaşmalısınız. Əlxüsus da qarşılıqlı münasibətlərə, ailə-sevgi davranışlarına ciddi fikir verməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Nəvəsini bişirmək istədi



Amerikanın Ohaya ştatında qəribə hadisə baş verib. Məlumatlara görə, Jackie Sheaks adlı qadın nəvəsini tavanın içinə yerləşdirərək yanan ocağın üzərinə qoyub. Sonra isə şəklini çəkib. Şəklin üzərinə "bişirmək üzrə ikən vaz keçdim" yazan qadın yüzlərlə insanın mənfi reaksiyası ilə üzləşib. Yanan ocağın üzərindəki uşaq şəkli facebook sosial şəbəkəsində rekord qırıb. Bir çoxları uşağın nənəsi olduğunu deyən qadının həbsini belə tələb edib. Bundan sonra J.Sheaks şəkli əylənmək üçün çəkdiyini deyib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.000